*Dinimiz milli-mənəvi sərvətimizdir.* HEYDƏR ƏLİYEV

# CƏMİYYƏT VƏ DİN

Təsisçi: AZƏRBAYCAN RESPUBLİKASI DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ www.scwra.gov.az № 04 (390) / APREL 2024-CÜ İL

## AZƏRBAYCAN CƏMİYYƏTİ ƏSRLƏR BOYU ƏN MÜHÜM DƏYƏRLƏRİ - TOLERANTLIĞI, QARŞILIQLI HÖRMƏTİ, DOSTLUQ VƏ TƏRƏFDAŞLIQ KİMİ DƏYƏRLƏRİ QORUYUB

### İLHAM ƏLİYEV VI ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMUNUN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK EDİB




Mayın 1-də Bakı Konqres Mərkəzində "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Əvvəlcə birgə foto çəkdirilib.

Tədbirin moderatoru, **ABŞ-ın Corc Meyson Universitetinin Sülh və Münaqişələrin Həlli üzrə Cimmi və Rozalin Karter Məktəbinin dekanı, professor Alpaslan Özerdem** deyib:

- Zati-aliləri Prezident İlham Əliyev.

Hörmətli qonaqlar, dini nümayəndələr, xanımlar və cənablar.

VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna xoş gəlmisiniz.

Bakıda toplaşdığımız zaman biz sərhədləri aşan, məfkurələri keçən dərin çağırışlarla və fürsətlərlə səciyyələnən qlobal durumun şahidiyik. Bəşəriyyət iqlim dəyişmələri, pandemiya, terrorçuluq, kiber təhlükələr və geosiyasi gərginlik kimi mürəkkəb məsələlərlə üzləşir. Əlbəttə ki, biz münaqişələri həll etməli və sülhü qurmalıyıq. 2011-ci ildə başladıqdan sonra məhz "Bakı Prosesi" bu məqsədi vacib tutub. Bu gün "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda Forumda əməkdaşlıq formalarını, rəhbərlik üsullarını müzakirə edəcəyik.

Xanımlar və cənablar.

Bu gün nümayəndələrimizə söz verməzdən öncə qısa videoçarxa baxacağıq. Orada "Bakı Prosesi" təsvir olunacaq.

***

"Bakı Prosesi"ndən və Azərbaycanın mədəniyyətlərarası dialoqa töhfələrindən bəhs edən videoçarxda deyilir:

- 2024-cü ildə dünyamız daha çox əlaqəli görünür, lakin heç vaxt olmadığı qədər parçalanmış qalır.

Bütün çağırışlar qarşısında bizim bir araya gəlmək, parçalanmanı dəf etmək və daha parlaq ümumi gələcəyə doğru yol açmaq üçün nadir fürsətimiz var. Bu, "Bakı Prosesi"nin özəyidir. Bakıya, Azərbaycana xoş gəlmisiniz. Burada Şərq ilə Qərb, ənənə ilə müasirlik qovuşur.

"Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna xoş gəlmisiniz. Bu mühüm Ümumdünya Forumu "Bakı Prosesi"nin hissəsi olaraq mədəniyyətlərarası dialoqu qlobal şəkildə təşviq edir. Forum fərqli etnik, mədəni, dini və dil mənşəyi olan insanları bir araya gətirir, qarşılıqlı anlaşmaya doğru açıq

Davamı səh. 2

# AZƏRBAYCAN CƏMİYYƏTİ ƏSRLƏR BOYU ƏN MÜHÜM DƏYƏRLƏRİ - TOLERANTLIĞI, QARŞILIQLI HÖRMƏTİ, DOSTLUQ VƏ TƏRƏFDAŞLIQ KİMİ DƏYƏRLƏRİ QORUYUB

Əvvəli səh. 1

və hörmətcil mübadilə üçün platforma yaradır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2008-ci ildə başlanmış, aparıcı beynəlxalq təşkilatların dəstəklədiyi "Bakı Prosesi" 250-dən artıq tədbirdə 180 ölkədən olan 10 mindən artıq iştirakçını salamlamış, bölgədə yeni mədəniyyətlərarası təşəbbüsləri ilhamlandırmışdır. Dünya VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna toplaşdığı zaman biz gələcəyimizi öz əllərimizdə saxlayırıq. Burada - Bakının mərkəzində bizim dünyanın gələcəyinə təsir etmək fürsətimiz var. Bu, ümid, anlaşma və dirçəlmə gətirə biləcək dinlərarası dialoq dünyasıdır. Burada dayanıqlı inkişaf, təhsil və turizm bizi bir-birimizə yaxın edir. Burada sosial media və süni intellekt bəşəriyyəti parçalamır, birləşdirir. Bakı COP29 Sammitinə ev sahibliyi edəcəyi vaxtda biz iqlim dəyişmələrinin yaratdığı çətinliyi aradan qaldırmaq üçün millətlərin bir araya gələcəyi dünyanı formalaşdırmaq istəyirik.

Əsas məqsədlərimiz dialoq vasitəsilə sülhü təşviq etmək, qlobal təhlükəsizliyi gücləndirmək və əməkdaşlığı möhkəmləndirməkdir. Forumun məqsədi yeni siyasət, sənədlər və razılaşmalar formalaşdırmaqdır və onlar təxirəsalınmaz məsələlərdə dünya hökumətlərinə təsir göstərmək qüvvəsinə malik olacaq.

Azərbaycan zəngin mədəniyyəti, etnik və dini müxtəlifliyi, tolerantlığın tarixi ilə öz mədəniyyətini dünya üçün ümid məşəli kimi ürəkdən təklif edir.

Cənubi Qafqazda onilliklərlə sürən münaqişədən sonra bu il Böyük Qayıdış reallaşır, sülhə, təhlükəsizliyə və firavanlığa yol açan Azərbaycanın suveren milli sərhədləri bərpa olunur. Qanuni yolla ərazinin uğurla azad olunması və münaqişənin beynəlxalq hüquqa uyğun həllindən sonra ədalət nəhayət ki, zəfər çalır.

Burada əsas mesaj ümiddir. Azərbaycan bu ümidi bütün dünyaya yaymağı səmimiyyətlə arzulayır.

Bu yola birgə çıxaraq gəlin, qarşımızdakı fürsətdən yararlanaq, birləşək, müxtəlifliyi bayram edək!

Sülh, qarşılıqlı hörmət və anlaşma dünyasının yaradılmasına gəlin, ümumi səylər, baxışlar və biliklər ilə töhfə verək.

"Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna xoş gəlmisiniz.

***

**Moderator Alpaslan Özerdem:** Çox gözəl bir səyahətdir. Həqiqətən, biz çox ilhamlanırıq. Mən burada olmağımdan çox məmnunam. "Bakı Prosesi" birmənalı olaraq bizə ümid verir.

Zati-aliləri.

Xanımlar və cənablar.

Mən bu mötəbər toplantıda Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyevi salamlamaqdan şərəf hissi duyuram. Prezident Əliyev uzaqgörən lider, mədəniyyətlərarası dialoqun və multikulturalizmin qlobal carçısıdır. 2008-ci ildə Prezident Əliyev müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında dialoqun və əməkdaşlığın gücləndirilməsi üçün məxsusi təşəbbüsü – "Bakı Prosesi"ni irəli sürdü. Bu cür uzaqgörən yanaşma sərhədləri aşaraq və parçalanmanı aradan qaldıraraq millətlər arasında da daha böyük anlaşma və qarşılıqlı hörmətə yol açdı.

Xahiş edirəm, Zati-aliləri Prezident İlham Əliyevi səmimiyyətlə salamlamaqda mənə qoşulun.

***

Azərbaycan dövlətinin başçısı Forumun açılış




mərasimində nitq söyləyib.

## PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

- Çox sağ olun, təşəkkür edirəm. Xoş sözlərə görə minnətdaram.

Hörmətli xanımlar və cənablar. Əziz qonaqlar. Azərbaycana xoş gəlmisiniz.

Çox şadam ki, Forum yenidən canlanır. Bildiyiniz kimi, bir neçə il ərzində fasiləmiz oldu. Bu, COVID-lə və post-COVID vəziyyətlə bağlı oldu. İndi isə əminəm ki, bizim ənənəvi cədvəlimiz tamamilə bərpa olunub.

Məmnunam ki, burada 100-dən artıq ölkənin nümayəndəsi var. Əslində, bu, 110 ölkədir. Bu, sözün əsl mənasında göstərir ki, Forum çox mühüm beynəlxalq platformadır və orada mədəniyyətlərarası dialoq məsələləri müzakirə olunur. Biz indi qısa videoçarx seyr etdik, orada "Bakı Prosesi" haqqında bəhs olunur. Əslində, biz prosesi başlayanda heç təsəvvür edə bilmirdik ki, onun nəticəsində insanları - ziyalıları, siyasətçiləri, qərar qəbul edənləri, media nümayəndələrini, vətəndaş cəmiyyətinin nümayəndələrini, vətəndaş cəmiyyətini bir araya gətirəcəyik, bir məqsəd ətrafında toplayacağıq ki, necə edək bizim dünyamız daha təhlükəsiz olsun. Çünki bunun əsasında mədəniyyətlərarası dialoq dayanır.

Mən burada Forumun proqramına baxdım. Görürəm, o, çox geniş proqramdır, bir çox sahələri əhatə edir. Gündəlik həqiqətən genişdir - mədəniyyətlərarası dialoq, müxtəliflik, iqlim dəyişmələri, miqrasiya, sülh və təhlükəsizlik, postmünaqişə vəziyyəti, turizm, süni zəka. Mən məhsuldar müzakirələr arzu edirəm. Əminəm ki, bu müzakirələr və o cümlədən Forum zamanı irəli sürülən ideyalar bizə yanaşmaları formalaşdırmağa imkan verəcək ki, mədəniyyətlərarası dialoqu necə gücləndirək, biz necə edək ki, mövcud və potensial hədələri aradan qaldıraq?

2019-cu ildə Bakıda görüşümüzdən sonra əfsuslar olsun ki, dünya təhlükəsiz olmayıb. Əfsuslar olsun ki, biz yeni münaqişələri görürük, yeni qeyri-sabitlik məkanlarını görürük və yeni təhdidləri görürük. Əminəm ki, hörmətli nümayəndələrdən ibarət auditoriya öz töhfəsini verəcək, ideyalar və yeni yanaşmalar formalaşacaq ki, qlobal gündəlikdə olan məsələlərə ən təxirəsalınmaz həll variantları tapılsın.

Həmin məsələlərin həllində, gündəlikdə olan məsələlərin müzakirəsində Azərbaycanın öz təcrübəsi var. Hesab edirəm, yaxşı olar ki, mən burada biz bu prosesi necə gördüyümüz haqqında bir az danışım və biz necə etməliyik ki, bu müsbət tendensiyaları gücləndirək? Əsrlər boyu Azərbaycan mədəniyyətlərin qovuşduğu məkan olub. Bizim coğrafi mövqeyimiz, Şərq ilə Qərb arasında yerləşməyimiz, əslində, bu tendensiyaya imkan yaradıb. Çoxmədəniyyətli və böyük etnik müxtəlifliyə malik olan Azərbaycan cəmiyyəti əsrlər boyu ən mühüm dəyərləri - tolerantlığı, qarşılıqlı hörməti, dostluq və tərəfdaşlıq kimi dəyərləri qoruyub. Əminəm ki, bir müstəqil ölkə kimi Azərbaycanın uğurlu inkişafını şərtləndirən məsələ məhz bunlardan ibarətdir. Azərbaycanda yaşayan insanlar, müxtəlif etnik qrupların və dinlərin təmsilçiləri bir ailə kimi yaşayırlar. Onlar Azərbaycanın dəyərli vətəndaşlarıdır, dövlətimizin, dövlətçiliyimizin əsl vətənpərvər insanlarıdır. Biz bu müsbət tendensiyaları, bu mədəni dialoqu, mədəni müxtəlifliyi gücləndirməliyik və əlbəttə ki, bütün bunlar bir çox əsrlərdən gələn nemətdir. Ona görə də biz mütləq məhz bu təşəbbüsü irəli sürməli, "Bakı Prosesi"ni başlamalı idik və bildiyiniz kimi, üç ildən sonra "Bakı Prosesi" rəsmən təsdiqləndi. Daha sonra isə biz Mədəniyyətlərarası Dialoq Forumuna başladıq. Əsas səbəblərdən biri Azərbaycan cəmiyyətində məhz sülhün, sabitliyin, həmrəyliyin mədəni müxtəliflik və qarşılıqlı hörmətə bağlı olmasıdır. Əlbəttə ki, Azərbaycan daxilində hər zaman müsbət mədəniyyətlərarası dialoq olub. Biz bunu gündəlik həyatımızda nümayiş etdirmişik. Biz multikulturalizm haqqında söhbət açanda nəzərdə tuturuq ki, bu, Azərbaycan vətəndaşları üçün nə isə bir abstrakt məfhum deyil, nə isə bir şeyi öyrənmək kimi deyil, bu, məhz bizim həyat tərzimizdir və biz bundan fərəhlənirik. Biz, həmçinin fərəhlənirik ki, bu dəyərləri əsrlər boyu qoruyub saxlaya bilmişik və çox keşməkeşli vaxtlarda - toqquşmalar, münaqişələr, müharibələr vaxtında qoruyub saxlaya bilmişik. Əslində, bütün bu hadisələr bizim sərhədlərimizə çox yaxın bir məsafədə baş verir və həmçinin əvvəllər bir neçə il ərzində Azərbaycan daxilində də olub. Bu, elə bir məsələdir ki, biz onları dostlarımızla bölüşmək istərdik. Həmçinin öz əminliyimizi nümayiş etdiririk ki, biz bu yolda addımlarımızı davam edəcəyik. Əminəm ki, bununla hər bir ölkə uğur qazana bilər. Çünki əgər siz birincisi, bu məsələləri daxilən

Davamı səh. 3

# AZƏRBAYCAN CƏMİYYƏTİ ƏSRLƏR BOYU ƏN MÜHÜM DƏYƏRLƏRİ - TOLERANTLIĞI, QARŞILIQLI HÖRMƏTİ, DOSTLUQ VƏ TƏRƏFDAŞLIQ KİMİ DƏYƏRLƏRİ QORUYUB

Əvvəli səh. 2




nəzərdən keçirsəniz, elə bir mühit yaranar ki, bütün etnik qrupların, dinlərin nümayəndələri özlərini ləyaqətli, təhlükəsiz şəraitdə hiss edərlər və onlara münasibət ədalətli olar. Əgər belə olmasa, bu, yalnız ayrı-seçkiliyə, etimadın çatışmazlığına aparıb çıxarar və sonda bu, sosial və bir çox hallarda siyasi çətinliklərlə nəticələnər. Bu, ölkə daxilində parçalanmaya səbəb olar. Buna görə, məhz təcrübəmiz göstərir ki, biz müstəqilliyin ilk illərində çox çətinliklər yaşadıq və bu vəziyyətdən çıxa bildik. Çünki o vaxt işğal var idi, çox iqtisadi və sosial çətinliklər özünü büruzə verirdi. Azərbaycanı parçalamaq cəhdləri var idi və məhz aqressiv separatçılıq var idi. Bütün bunlar Azərbaycan xalqının məhz həmrəyliyini, birliyini sınağa çəkdi. Buna görə milli maraqların qorunması bizim uğurumuz üçün çox vacib amil idi. Əlbəttə ki, bu kontekstdə dini rəhbərlərin rolu xüsusi əhəmiyyət kəsb edir. Elə sizin də müzakirə edəcəyiniz məsələlərdən biri bununla bağlıdır. Forumda yüzdən artıq dini nümayəndə iştirak edir. Əminəm ki, onlar qarşılıqlı anlaşmanın və hörmətin gücləndirilməsinə töhfə verəcəklər.

Azərbaycana gəldikdə, mədəniyyətlərarası dialoq elə bir məfhumdur ki, biz onu güclü şəkildə təşviq edirik. Ölkəmizdə çoxsaylı tədbirlər təşkil edirik. Bunlar dinlərarası dialoqla bağlıdır. Müzakirələrin bir hissəsi olaraq məhz bunu Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində həyata keçiririk və digər tədbirlərdə bu məsələyə toxunuruq. Bununla bağlı xüsusi müzakirə sessiyası və COP29 tədbiri də olacaqdır. Bu dialoq məsələsi orada da müzakirə olunacaqdır. Əminəm ki, bütün dünyadan gələn bu sahə üzrə rəhbərlər bu gün Bakıda həmrəylik nümayiş etdirəcəklər və liderlik göstərəcəklər. Çünki dini nümayəndələrin rolu dünyada bütün xalqlar üçün vacibdir və onlar həmin rəhbərlərdə sülh, tolerantlıq, qarşılıqlı hörmət kimi müsbət mesajları eşitməlidirlər. Bunlar çox vacib amillərdir. Əfsuslar olsun ki, biz bəzi hallarda fərqli mesajları da eşidirik və bu da əlavə gərginlik yaradır. Bir sözlə, düşünürəm ki, bu istiqamətdə müsbət tendensiyalar güclü şəkildə dəstəklənməlidir.

Müzakirə olunacaq məsələlərdən biri də çoxtərəflilikdir. Azərbaycan öz təcrübəsini göstərib. Biz qəti şəkildə çoxtərəfliliyə sadiqik. Biz çoxtərəflilik dəyərlərini 120 ölkənin üzv olduğu Qoşulmama Hərəkatında 2019-cu ildən bu ilin əvvəlinə qədər təşviq etmişik. O, BMT-dən sonra ikinci ən böyük təşkilatdır və həmçinin bununla bağlı yekdil qərarımız oldu, sədrliyimiz yekdil qərarla əlavə bir il də artırıldı. Təbii ki, Qoşulmama Hərəkatının vacib təməl dəyərləri məhz suverenlik, ölkələrin ərazi bütövlüyü, daxili işlərə qarışmamaqdır. Biz həmin Hərəkatın təsisatlanması seqmentinin gücləndirilməsinə çalışdıq və bununla bağlı daxildə şəbəkə yaratdıq, qadınların və gənclərin təşkilatlarını təsis etdik. Bütün bunlar məhz Azərbaycan tərəfindən yaradılıb.

Əminəm ki, Qoşulmama Hərəkatının təsisatlanması istiqamətində inkişafı gələcəkdə də davam edəcək. Çünki hazırda dünyaya nə lazımdır, bəzi böyük ölkələr bu və ya digər qütbə aid deyil, onların öz hüquqları və öz maraqları var. Onların bəzilərinin çox ağrılı-acılı müstəmləkə tarixçəsi olub və həmin ölkələrin səsi dinlənilməlidir, onlar yaddan çıxarıla bilməz. Buna görə də həmin Hərəkatda bizim sədrliyimiz məhz bu məqsədi güdürdü və biz daha çevik, daha fəal olmağa çalışdıq. İstədik Hərəkat daha təsirli olsun. COVID vaxtlarında biz, həmçinin Qoşulmama Hərəkatının platformasından istifadə edərək həmin faciəvi xəstəliyin fəsadlarını müzakirə etməyə çalışdıq. Çünki pandemiya bütün ölkələrə təsir göstərdi. Azərbaycan məhz o ölkələrdən biri idi ki, fəal şəkildə peyvənd millətçiliyinə qarşı çıxış etdi, səsini qaldırdı və ucaltdı. Bildiyiniz kimi, pandemiyanın ilk aylarında peyvənd çatışmırdı. Pul vəsaitləri çox olan bir sıra ölkələr özlərində çox böyük sayda, hətta beş dəfədən artıq peyvənd topladılar. Bunu necə etmək olar?! Bununla onlar, sadəcə, bir çox digər ölkələrin səhiyyə sistemini heçə endirdi ki, onların da peyvəndlərə çıxışı yox idi. Ona görə milli maraqlar baxımından, əlbəttə ki, Azərbaycan həmin Qoşulmama Hərəkatında sədrliyi zamanı peyvənd milliyyətçiliyinə qarşı mübarizə apardı və biz Baş Assambleyada bununla bağlı təşəbbüskar olduq.

Biz bir məsələni də Qoşulmama Hərəkatının sədri kimi hər zaman təşviq edirdik. Bu, yeni müstəmləkə tendensiyalarına qarşı mübarizədir. Artıq söylədiyim kimi, həmin Hərəkatın üzvlərinin əksər hissəsinin çox ağır, qaranlıq müstəmləkə tarixçəsi olub və buna qarşı mübarizənin aparılması o deməkdir ki, biz buna inanırıq. Çünki biz ədalət naminə danışırıq, çünki biz beynəlxalq hüquq naminə danışırıq. Yəni, biz belə bir məsələyə imkan verə bilmərik ki, indi - XXI əsrdə bəzi Avropa ölkələri digər xalqlara müstəmləkə kimi yanaşsın. Təbii ki, biz öz səsimizi ucaltdıqda, Hərəkatda sədrliyimiz zamanı bu məsələni qaldırdıqda bu, onunla bağlı deyildi ki, biz hansısa ölkələrə qarşı idik. Biz, sadəcə, ədalətə, beynəlxalq hüquqa bağlı idik. Bu, yaddan çıxmalı deyil. Dünya məcburi assimilyasiyaya aparan belə bir iyrənc neokolonializm təcrübəsinə göz yummamalıdır. Ondan çox fransız dənizaşırı ərazisində həyata keçirilən məcburi assimilyasiya əsla qəbuledilməzdir və buna son qoyulmalıdır. Bu səbəbdən Avropa təsisatları bəzən çalışırlar Avropada olmayan ölkələrin daxili işlərinə müdaxilə etsinlər. Amma Avropa Parlamenti və AŞPA bununla bağlı səsini çıxarmır. Çünki yeni müstəmləkə tendensiyaları yenə də davam edir. Onda siz nəyə görə tənqid etmirsiniz? Nəyə görə siz sanksiyalar tətbiq etmirsiniz? Nəyə görə susursunuz? Bəli, biz sədr olaraq Hərəkat daxilində bu işi gördük. Bu, bizim vəzifəmiz idi. İndi görürük ki, digər ölkələrə, imperiyada yaşayan xalqlara gəldikdə, biz bilirik ki, azad və müstəqil olmaq nə deməkdir. Biz bunu bilirik və həmin insanlara kömək etmək istəyirik. Çünki onlar öz hüquqlarını müdafiə etmək, müstəqilliyə qovuşmaq, öz mədəniyyətlərini, öz dillərini qorumaq istəyirlər. Bu, elə bir məsələdir ki, hesab edirəm hər bir normal insan məhz bu hüququ müdafiə edər. Bir sözlə, bu, çox vacib məsələdir. Bu, həmçinin mədəniyyətlərarası dialoq üçün vacibdir. Biz burada ikiüzlü ola bilmərik, ikili standartları tətbiq edə bilmərik. Yaxud da ki, əgər görürüksə ikili standartlar nümayiş etdirilir, biz buna göz yuma bilmərik. Əgər siz insanlara xoş olan tolerantlıqdan, demokratiyadan, insan hüquqlarından danışıb, amma digər tərəfdən, siz dənizdə olan 10-dan artıq ərazidə bunun əksini edirsinizsə, bu, riyakarlıqdan, ikili standartlardan başqa bir şey deyil. Əlbəttə ki, bu sahələrdə həmin yanaşma tətbiq olunacaqdır.

Davamı səh. 4

# AZƏRBAYCAN CƏMİYYƏTİ ƏSRLƏR BOYU ƏN MÜHÜM DƏYƏRLƏRİ - TOLERANTLIĞI, QARŞILIQLI HÖRMƏTİ, DOSTLUQ VƏ TƏRƏFDAŞLIQ KİMİ DƏYƏRLƏRİ QORUYUB

Əvvəli səh. 3




Azərbaycan COP29-a yekdil qərarla ev sahibliyi edən ölkə seçildi. Biz indi öz rolumuzu körpülərin salınmasında görürük. Mən tariximiz, coğrafiyamız, qarşılıqlı əlaqələrimiz, Avropa təsisatları ilə olan münasibətlərimiz, eyni zamanda, coğrafi baxımdan Qərb ilə Şərq arasında yerləşməyimiz barədə söylədim ki, biz bu amillərlə çox iş görə bilərik. Hazırda biz qeyd edirik ki, əvvəlki sədrliyimiz zamanı olduğu kimi körpülər salmağa çalışacağıq.

Əlbəttə ki, iqlim dəyişmələrinə aid olan məsələlərə gəldikdə, bizə maliyyə vəsaiti lazımdır. Bəli, maliyyə məsələsi öz növbəsində COP29-un əsas mövzusu olacaq. Lakin bizə həmrəylik və qarşılıqlı etimad lazımdır. Biz bir-birimizi günahlandırmalı deyilik ki, kim planetə daha çox zərbə vurub. Yaxud da qlobal istiləşməyə görə kimin daha çox məsuliyyət daşıması ilə bağlı mübahisə etməməliyik. Əgər biz bu davranışı davam etdirsək, onda bunun sonu faciə olacaq. Mən bu yaxınlarda tərəfdaşlarımızla iqlim dəyişikliyi ilə bağlı danışdım. Bu, qaçılmazdır. Çünki biz neft hasil edən ölkəyik və dedim ki, neft-qazımızın olması bizim günahımız deyil. Başqalarının da belə təbii sərvətləri var və əlbəttə ki, onların öz təbii sərvətlərindən ölkələrinin faydası üçün istifadə etmək imkanı var. Azərbaycana gəldikdə, bu imkan nəinki Azərbaycana aiddir, biz təbii qazımızı səkkiz ölkəyə çatdıraraq onların enerji təhlükəsizliyinə töhfə veririk. Əgər biz bu gün məhz yol təchizatlarına, enerji təchizatlarına baxsaq görərik ki, onlar çox müxtəlifdir. Ona görə bizim səylərimiz körpülərin salınmasına yönələcək.

Avropa-Qlobal Cənub istiqamətinə və həmrəyliyə gəldikdə, biz buna nail ola bilərik. Bunun üçün biz ürəkdən çalışmalıyıq, gündəliyimiz də buna köklənib. Eyni zamanda, bizim özümüzün yaşıl gündəliyimiz var və biz buna COP29-a ev sahibliyi etmək şərəfinə layiq görüləndən xeyli əvvəl başlamışıq. 2027-ci ilə qədər bizdə 2 qiqavat Günəş və külək enerjisi stansiyaları işə düşəcək və 2030-cu ilə qədər əlavə 5 qiqavat da istismara veriləcək. Bunun sayəsində bərpaolunan enerjini elektrik enerjisi istehsalında istifadə etmək üçün bizə imkan yaranacaqdır. Bütün bunlar üçün biz çox yaxşı sərmayə şəraiti yaratmışıq, sərmayədarlar var. Biz, həmçinin bərpaolunan enerji mənbələrindən istifadə edirik. Bu, elə bir faktdır ki, biz onun əsasında beynəlxalq ictimaiyyət tərəfindən dəyərləndirilməliyik, yalnız sırf neft-qazın olması ilə deyil. Yəni, biz bununla bağlı hər hansı səhv addım atmırıq. Azərbaycan, onun göstəriciləri, iqlim dəyişmələrinə gəldikdə, hesab edirəm ki, onlar nümunəvi hesab oluna bilər.

Yekun bir məsələni də qeyd edim. Bu da sizin müzakirələr gündəliyinizə aiddir ki, sülh və təhlükəsizlik münaqişədən sonrakı vəziyyətlə bağlı olan məsələlərdir. Azərbaycan sülhü müharibə vasitəsilə təmin etdi. Hesab edirəm ki, bu, lazımınca nəzərdən keçirilməlidir. Biz demək olar 30 il ərzində işğal altında olmuşuq. Bütün əvvəlki dialoq forumlarında mən işğal və ədalətsizlik haqqında danışmışam və bildirmişəm ki, insanlar bundan əziyyət çəkiblər. Bizim beynəlxalq səviyyədə tanınmış ərazimizin 20 faizi demək olar ki, müstəqilliyin ilk illərindən 2020-ci ilədək işğal altında qalıb və bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkün olub, biz etnik təmizləməyə məruz qalmışıq. Bu, Qarabağda və Şərqi Zəngəzurda baş verib. Burada tamamilə yerlə-yeksan olunan sahələri görmüşük. İndi biz azad edilmiş ərazilərə daxil olanda bunu öz gözlərimizlə görürük. Əminəm ki, iştirakçılardan bəziləri azad olunmuş ərazilərə baş çəkəcəklər. Biz öz səsimizi ucaltmışıq, biz ürəkdən çalışdıq, diplomatiya sahəsində işlədik, bütün beynəlxalq təşkilatlar qətnamələri və qərarları qəbul etdi və orada erməni qüvvələrinin çıxarılması tələb olunurdu. O cümlədən BMT-nin Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etdi. Amma bu, işləmədi, çünki implementasiya mexanizmi yox idi. Bu, bizim diqqətimizdən kənarda qala bilməzdi. Həmin qətnamələri qəbul edənlər heç bir şey etmədilər ki, onlar icra olunsun. Odur ki, biz sülhə müharibə yolu ilə nail olmalı idik və 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində ərazilərimizin böyük hissəsini azad etdik. Ötən ilin sentyabr ayında isə biz öz ərazi bütövlüyümüzü, suverenliyimizi tam şəkildə bərpa etdik. İndi isə biz münaqişədən sonrakı vəziyyətdəyik. Münaqişədən sonrakı vəziyyətə gəldikdə, bir daha deyirəm, Azərbaycan çox fəal çalışır, Azərbaycan məhz Ermənistana sülh sazişi ilə bağlı danışıqlara başlamaq təşəbbüsünü irəli sürdü. Azərbaycan məhz o ölkədir ki, baza prinsiplərini, hətta sülh sazişinin layihəsini hazırladı. İndi iki ölkə arasında danışıqlar gedir və bu danışıqlar bizim təkliflərin layihəsi üzərində aparılır. Demək olar ki, 30 il insanlar əziyyət çəkib, beynəlxalq hüquq pozulub, bizim bütün mədəni, tarixi məkanlarımız, o cümlədən 67 məsciddən 65-i erməni vandalları tərəfindən tamamilə məhv edilib. Qeyd edirəm ki, bəzi ölkələr Ermənistana dəstək verirdi.

Ötən ilin sentyabr ayında biz ərazi bütövlüyümüzü, suverenliyimizi tam bərpa edəndən sonra Ermənistanın dırnaqarası qarantorları tərəfindən siyasi hücumlara məruz qaldıq. Buna baxmayaraq, biz yenə sülh təklif etdik. İndi isə biz, əslində, müsbət tendensiyaya və sülhə doğru gedirik, sərhədlərin delimitasiyası başlayıb. Nəinki delimitasiyası, hətta demarkasiyası başlayıb. Mən burada çıxış etdiyim zaman bu iş gedir. Buna iki ölkə tərəfindən hər hansı bir vasitəçi olmadan nail olunub. Bu, bir daha onu göstərir ki, bizə vasitəçi lazım deyil. Xüsusən də o insanlar ki, məhz öz məqsədlərini güdürlər və yardım etmək istəmirlər. Onlar bizim bölgəyə öz fərdi, siyasi və iqtisadi maraqları naminə müdaxilə etmək istəyirlər. Onlar həmin alova yenidən odun atmaq istəyirlər. Biz Cənubi Qafqazda buna icazə verməyəcəyik, imkan verməyəcəyik. Otuzillik toqquşmadan sonra Ermənistan da aydın şəkildə anlayır ki, biz Cənubi Qafqazda sülh istəyirik və sülh bu bölgədə yalnız Azərbaycanla Ermənistan arasında normallaşma vasitəsilə həll oluna bilər.

Bununla mən çıxışımı yekunlaşdırıram, vaxtınızı çox almaq istəmirəm. Diqqətinizə görə minnətdaram. Sizə müzakirələrinizdə böyük uğurlar diləyirəm. Çox sağ olun, sizə xoş səfər arzulayıram.

* * *

Davamı səh. 5

# AZƏRBAYCAN CƏMİYYƏTİ ƏSRLƏR BOYU ƏN MÜHÜM DƏYƏRLƏRİ - TOLERANTLIĞI, QARŞILIQLI HÖRMƏTİ, DOSTLUQ VƏ TƏRƏFDAŞLIQ KİMİ DƏYƏRLƏRİ QORUYUB

Əvvəli səh. 4



**Moderator Alpaslan Özerdem:** Cənab Prezident, bizim üçün, Forumumuz üçün aydın təlimatları verdiyinizə görə minnətdaram. Biz Sizin nitqinizdə qlobal sülh və təhlükəsizliklə bağlı fikirlərlə tanış olduq və nə edilməlidir, Azərbaycan bu günə qədər nə edib. Mən, sözün əsl mənasında, göstərdiyiniz rəhbərliyə görə Sizə təşəkkürümü bildirirəm. Çünki Siz Cənubi Qafqazı elə bir məkana çevirmisiniz ki, burada ortaq gələcək mümkündür.

* * *

Dünyada baş verən gərgin proseslər fonunda "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətini xüsusi vurğulayan **BMT Sivilizasiyalar Alyansının Ali nümayəndəsi Migel Anxel Moratinos** deyib: Dialoq sülhə aparan yoldur və biz parçalanmış keçmişdən ümumi ortaq gələcəyimizə addımlayacağıq. İstərdik ki, bundan sonra normallaşmanı, münasibətlərin qurulmasını nümunə kimi götürək. Bu kontekstdən çıxış edərək qlobal səviyyədə səylərimizi davam etdirəcəyik. İstərdik ki, insanlar arasında etimad daha da bərpa olunsun. Cənab Prezident, "Bakı Prosesi" bizə lazımdır. Ümid edirəm ki, burada aparılan müzakirələr və bu Forum parlaq gələcəyimizə töhfə verəcək.

* * *

**ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd Əl-Malik** Prezident İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülmüş mədəniyyətlərarası dialoqa dair "Bakı Prosesi"nin iqtisadiyyat, elm, iqlim sahələri kimi qlobal çağırışların səsləndiyi mühüm platforma olduğunu qeyd edərək bildirib: Hazırda Mədəniyyətlərarası Forum özünün VI interaktiv formasında Azərbaycanın gözəl tərəqqisini qeyd edir və ölkəni digərlərindən fərqləndirir. ICESCO-nun bu dinamik ölkənin rəhbərliyi ilə özünün müstəsna tərəfdaşlığından fərəhlənməyə hər bir əsası var. Ölkənin tarixi şəhəri Şuşa İslam dünyasının mədəniyyət paytaxtı kimi fəaliyyətə başlamağa hazırlaşır. Bu, mayın 11-də olacaq. Biz ICESCO ilə Azərbaycan arasında cari əməkdaşlığın yeni mərhələsinin şahidiyik. O, mədəniyyət və sivilizasiya sahələrində fəaliyyətləri, proqramları və layihələri əhatə edir.

* * *

VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun münaqişələrin həlli və qlobal böhrandan çıxış istiqamətində əhəmiyyətini qeyd edən **UNESCO Baş direktorunun sosial və humanitar elmlər üzrə müavini xanım Qabriela Ramos** mədəniyyət sahəsi ilə bağlı əməkdaşlıq məsələlərinə də toxunaraq deyib: Biz, əslində, əməkdaşlığı çox geniş sayda ölkələrlə edirik. Biz burada Azərbaycanı da nəzərdə tuturuq. İstəyirik ki, burada məhz incəsənət, mədəniyyət, elm sahələrində fəaliyyət göstərən xadimlər bir araya gəlsinlər, öz fərqli identikliklərini bölüşsünlər, öz tarixçələrindən danışsınlar. Hesab edirəm ki, Azərbaycan bu baxımdan çox gözəl tanınan ölkədir. Çünki Siz, cənab Prezident, bir çox tədbirlərə ev sahibliyi etmisiniz.

* * *

Bəşəriyyəti narahat edən qlobal çağırışların diqqət mərkəzinə çevrildiyi Forum çərçivəsində aparılan müzakirələrin rolundan danışan **BMT-nin Turizm Təşkilatının İcraçı direktoru Zoritsa Uroseviç** Azərbaycanın ev sahibliyi etdiyi qlobal tədbirlərin turizm və miqrasiya sahəsində də mövcud problemlərin həllində əhəmiyyətini vurğulayaraq deyib: Bu il COP29-un məhz Bakıda keçirilməsi Sizin sadiqliyinizin təzahürüdür. İlbəil bu Forum öz əhəmiyyətini tərəfdaşlığın möhkəmləndirilməsi, tövsiyələrin verilməsi, mədəniyyətlərarası dialoq çərçivəsində mühüm və aktual məsələlərin təşviqi üçün əsas platforma kimi nümayiş etdirir.

* * *

**Moderator Alpaslan Özerdem** VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda dünyanı narahat edən mühüm mövzuların müzakirəsinə yaratdığı şəraitə və dəstəyə görə Azərbaycana təşəkkürünü bildirərək deyib: 2011-ci ildə Forum yarandıqdan sonra verdiyi güclü dəstəyə görə Prezident Əliyevə ən dərin təşəkkürümüzü və səmimi təbriklərimizi çatdırıram. Cənab Prezident və dəyərli tərəfdaşlarımız, Sizin işə sadiqliyiniz və rəhbərliyiniz bu mühüm toplantının uğurunda və onun təsirində həlledici olmuşdur.

* * *

Açılış mərasimindən sonra Forum işini plenar və panel sessiyalarla davam etdirib.

* * *

Qeyd edək ki, Forum Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO-nun, BMT-nin Sivilizasiyalar Alyansının, Dünya Turizm Təşkilatı və ICESCO-nun tərəfdaşlığı ilə keçirilir. Tədbirdə 100-dən çox ölkəni təmsil edən 700 mötəbər qonaq iştirak edir.

Yüksək səviyyəli dövlət xadimləri, parlament rəhbərləri, dini liderlər, alimlər, jurnalistlər və müxtəlif etnik və mədəni qrupa daxil olan şəxslərdən ibarət iştirakçılar mənalı dialoq vasitəsilə sülh və qlobal təhlükəsizliyə doğru irəliləyişə nail olmaq üçün bir araya gəliblər.

Üç gün davam edəcək Forum çərçivəsində 4 plenar sessiyanın və 12 panel müzakirənin keçirilməsi nəzərdə tutulur. Müzakirə olunacaq mövzular təhsil, gənclər, iqlim dəyişikliyi, süni intellekt, mədəni irsin mühafizəsi, qanunsuz miqrasiya və digər sahələri əhatə edir.

Forum iştirakçılarının Azərbaycanın 30 illik işğaldan azad edilmiş ərazilərinə səfərlərinin təşkili də gözlənilir. Tədbir çərçivəsində Ağdamda və Şuşada xüsusi panel sessiyaların keçirilməsi də nəzərdə tutulur. Bu, eyni zamanda, Azərbaycanın işğaldan azad etdiyi ərazilərdən beynəlxalq ictimaiyyətə müraciət üçün bir platforma yaratmaq fürsətidir.

Xatırladaq ki, Prezident İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülmüş mədəniyyətlərarası dialoqa dair "Bakı Prosesi"nin tərkib hissəsi sayılan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu ilk dəfə Bakıda 2011-ci ildə, sonra isə 2013-cü, 2015-ci, 2017-ci və 2019-cu illərdə təşkil olunub. Ötən müddət ərzində Forumun coğrafiyası çox genişlənib, tədbirə qoşulan ölkələrin və qurumların sayı xeyli artıb. Forumlara ümumilikdə 10 mindən çox iştirakçı – hökumət rəsmiləri, beynəlxalq təşkilat və institutlardan rəhbər və nümayəndələr qatılıblar. Eyni zamanda, forumlar çərçivəsində 200-dən artıq müxtəlif formatlı və miqyaslı tədbirlər, plenar və panel müzakirələr, təqdimatlar təşkil olunub. Bəşəriyyəti narahat edən qlobal çağırışların diqqət mərkəzinə çevrildiyi ötən beş Forum çərçivəsində aparılan müzakirələr, tərtib edilən sənədlər beynəlxalq təşkilatlar üçün əsas istinad rolunu oynayıb və "Bakı Prosesi" mədəniyyətlərarası dialoqa dair vacib platforma kimi qəbul edilib.

## R.Ə.Məmmədovun Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri təyin edilməsi haqqında
## **Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**



Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq qərara alıram:

Ramin Ələmşah oğlu Məmmədov Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri təyin edilsin.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 8 aprel 2024-cü il

# PREZİDENT İLHAM ƏLİYEV VƏ PREZİDENT SADIR JAPAROV AĞDAM CÜMƏ MƏSCİDİNİN BƏRPADAN SONRA AÇILIŞINDA İŞTİRAK EDİBLƏR





Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdam Cümə məscidinin bərpadan sonra açılışında iştirak ediblər.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov dövlət başçılarına məsciddə görülən işlər barədə məlumat verib.

Diqqətə çatdırılıb ki, işğaldan azad olunan ərazilərdə tarixi-mədəni və dini abidələrin bərpası layihələri çərçivəsində Ağdam Cümə məscidindəki işlər yekunlaşıb və məscid əvvəlki görkəminə qaytarılıb. Ağdam şəhərindəki Cümə məscidi memar Kərbəlayı Səfixan Qarabaği tərəfindən 1868-1870-ci illərdə tikilib. Şəhər Ermənistan silahlı qüvvələrinin işğalı altında olduğu müddətdə Cümə məscidi ermənilər tərəfindən yandırılaraq vandalizmə məruz qalmışdı.

Torpaqlarımız işğaldan azad olunduqdan sonra 2022-ci ilin martından Ağdam Cümə məscidinin bərpasına başlanılıb. Konservasiya və restavrasiya işləri məscidin ilkin memarlıq üslubuna uyğun olaraq Heydər Əliyev Fondu tərəfindən aparılıb. "PAŞA Holdinq" şirkətinin dəstəyi ilə aparılan bərpa işlərinə yerli mütəxəssislərlə yanaşı, xarici mütəxəssislər, Avstriyanın "Brugger&KO Restauratoren GmbH" şirkəti də cəlb olunmuşdu.

Restavrasiya prosesinin qüsursuz yerinə yetirilməsi məqsədilə ilkin tikinti zamanı istifadə olunan materiallar avstriyalı ekspertlər tərəfindən araşdırılıb. Ərazidəki dağıntılar aradan qaldırılıb, məscidin daxilində sütunların və kənar divarların yanında kəşfiyyat qazıntıları, giriş hissəsindəki tarixi daş döşəmənin üzə çıxarılması, tarixi və texniki tələblər əsasında müvafiq suvaq nümunələrinin və laboratoriya analizləri əsasında boya nümunələrinin yaradılması, sınıq günbəzin və tağların taxta konstruksiyalarla bərkidilməsi işləri yerinə yetirilib.

Məscidin eyvan divarlarında daş və birləşmələr qeyri-təbii materiallardan təmizlənərək bərpa olunub, həmçinin bünövrələrin möhkəmləndirilməsi işləri aparılıb. Qırıq minarə daşları bərpa olunub, taxta konstruksiyaların bərpası və konservasiyası işləri görülüb.

Qeyd edək ki, işğal dövründə - 2000-ci il mayın 9-da Ümummilli Lider Heydər Əliyevə təqdim olunmuş Ağdam Cümə məscidinə aid daş parçası da burada nümayiş etdirilir.

Damdakı günbəzlərin zədələnmiş suvağının aradan qaldırılması, günbəzlərin və anbarların əhəng suyu və əhəng qatı ilə gücləndirilməsi, divar tacının yenidən qurulması və uyğun təbii daşlarla doldurulması prosesi tamamlanıb. Məscidin içindəki daşlar, giriş qapısı bərpa olunub, fasadı tarixi görkəminə uyğun restavrasiya edilib.

# PREZİDENT İLHAM ƏLİYEV
## PAKİSTANIN MUSLİM İNSTİTUTUNUN DİREKTORUNU QƏBUL EDİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Pakistan İslam Respublikasının MUSLİM İnstitutunun direktoru, Cunaqad Ştatının Baş naziri Sahibzadə Sultan Əhməd Əlini qəbul edib.

Görüşdə Bakıda keçiriləcək Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyəti vurğulanıb, bu tədbirin müxtəlif mədəniyyətlərin nümayəndələri arasında əlaqələrin qurulması işinə töhfə verdiyi qeyd olunub.

Söhbət zamanı Azərbaycan-Pakistan əlaqələrinə toxunularaq ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirilib, müxtəlif məsələlərlə bağlı Azərbaycanın və Pakistanın daim bir-birini dəstəkləməsinin önəmi vurğulanıb.

Görüşdə Ulu Öndər Heydər Əliyevin Pakistana səfərinin ölkələrimiz arasında əlaqələrin təməlini qoyduğu qeyd edilib və yüksək səviyyədə həyata keçirilən qarşılıqlı səfərlərin və görüşlərin münasibətlərimizin möhkəmlənməsi işinə töhfə verdiyi bildirilib.

# PREZİDENT İLHAM ƏLİYEV
## ABŞ-IN İSA MƏSİHİN SONUNCU GÜN MÜQƏDDƏSLƏRİ KİLSƏSİNİN VƏ STİRLİNQ FONDUNUN NÜMAYƏNDƏLƏRİNİ QƏBUL EDİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Amerika Birləşmiş Ştatlarının İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin rəhbər heyəti, "On iki Həvari Kvorumu"nun üzvü Deyvid Bednarı, İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin "Yetmiş Həvari Kvorumu"nun üzvü Cek Gerardı, Stirlinq Fondunun prezidenti Mayls Hanseni və Stirlinq Fondunun baş icraçı direktoru Edvard Rounu qəbul edib.

Görüşdə Bakıda keçiriləcək Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun önəminə toxunularaq, bu tədbirin beynəlxalq miqyasda mədəniyyətlərarası dialoqun genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olunub. Forumda müxtəlif ölkələrdən çox sayda nüfuzlu qonağın iştirak etməsi bu tədbirə dünyada göstərilən marağın nümunəsi kimi dəyərləndirilib.

Söhbət zamanı Azərbaycanın mədəniyyətlər və dinlərarası dialoqa verdiyi töhfə barədə danışılıb, ölkəmizdə tarixən müxtəlif mədəniyyətlərin və dinlərin nümayəndələrinin vahid bir ailə kimi dinc və sülh şəraitində yaşadıqları məmnunluqla vurğulanıb.

# PREZİDENT İLHAM ƏLİYEV

## TDT-YƏ ÜZV VƏ MÜŞAHİDƏÇİ DÖVLƏTLƏRİN DİNİ RƏHBƏRLƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi dövlətlərin müsəlman dini rəhbərlərindən ibarət nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinə Özbəkistan Müsəlmanlar İdarəsinin sədri Nuriddin Xaliknazarov, Qazaxıstan Müsəlmanlar İdarəsinin sədri Naurızbay Otpenov, Qırğızıstan Müsəlmanlar İdarəsinin sədri Abdulaziz Zakirov və Şimali Kipr Türk Respublikasının Diyanət İşləri Başkanı Ahmet Unsal daxildir.

Görüşdə VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətinə toxunulub, bu tədbirin xalqlar və müxtəlif dinlərin nümayəndələri arasında əlaqələrin möhkəmləndirilməsi işinə böyük töhfə verdiyi bildirilib.

Prezident İlham Əliyev Türkdilli dövlətlər arasında dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini deyərək, eyni zamanda, bu ölkələrin dini liderləri arasında əməkdaşlığın həyata keçirilməsinin önəmini qeyd edib və vurğulayıb ki, bu əməkdaşlıq ölkələrimiz və xalqlarımız arasında əlaqələrin möhkəmlənməsinə öz töhfəsini verir. Dövlətimizin başçısı qonaqların işğaldan azad olunmuş ərazilərimizə səfərinin önəminə toxunaraq bu səfərin orada gedən proseslərlə yaxından tanış olmaq üçün yaxşı imkan yaradacağını bildirib.

Prezident İlham Əliyev Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Azərbaycana dövlət səfəri zamanı Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana dövlət səfəri zamanı Füzuli şəhərində inşa olunan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılışını və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun Azərbaycana dövlət səfəri zamanı Ağdamın Xıdırlı kəndində inşa olunacaq tam orta məktəb binasının təməlinin qoyulmasını dostluq və qardaşlıq əlaqələrimizin təzahürü kimi dəyərləndirib. Eyni zamanda, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatarın ölkəmizə rəsmi səfərini məmnunluqla xatırlayıb.

Özbəkistan Müsəlmanlar İdarəsinin sədri Nuriddin Xaliknazarov Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin, Şimali Kipr Türk Respublikasının Diyanət İşləri Başkanı Ahmet Unsal isə Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatarın salamlarını dövlətimizin başçısına çatdırıblar.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Şavkat Mirziyoyevə və Ersin Tatara çatdırmağı xahiş edib.

Azərbaycanda onlara göstərilən qonaqpərvərliyə görə minnətdarlıqlarını bildirən dini liderlər bu Forumun önəmini vurğulayıblar, dövlətimizin başçısının Forumda məzmunlu çıxışının onlara dərin təəssürat hissi bağışladığını deyiblər. Qonaqlar bu tədbirin türkdilli dövlətlər arasında dostluq və qardaşlıq əlaqələrinə söykənən tarixi, dini, mədəni köklərimizin bir-birinə daha da yaxınlaşmasına xidmət etdiyini vurğulayıblar.

Prezident İlham Əliyev işğal dövründə ermənilər tərəfindən tarixi-dini abidələrimizin dağıdıldığını qeyd edərək hazırda həmin ərazilərimizdə aparılan genişmiqyaslı bərpa işləri çərçivəsində yeni məscidlərin inşa edildiyini, dağıdılanların isə bərpa olunduğunu deyib.

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə Azərbaycanda dini azadlıqların təmin olunması, islami dəyərlərin qorunması işinə dövlət səviyyəsində göstərilən qayğıya, həmçinin işğaldan azad edilmiş torpaqlarımızda tarixi-dini abidələrimizin, məscidlərimizin bərpasına görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib, bu istiqamətdə Heydər Əliyev Fondunun həyata keçirdiyi işləri xüsusi olaraq qeyd edib, Fondun dini-mədəni sərvətlərimizin qorunmasında oynadığı rolu vurğulayıb.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Azərbaycanda dini dəyərlərin qorunmasında Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətlərini dərin ehtiramla yad edib.

# DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ KOLLEKTİVƏ TƏQDİM OLUNUB

Aprelin 9-da Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspora, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Azərbaycan Respublikası Prezidentinin 8 aprel 2024-cü il tarixli Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri vəzifəsinə təyin olunmuş Ramin Məmmədovu kollektivə təqdim edib.

Prezident Administrasiyasının şöbə müdiri Fərəh Əliyeva ölkəmizdə nümunəvi dövlət-din münasibətlərinin formalaşmasının Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu qeyd edib. Bildirib ki, dövlət-din münasibətləri hər zaman prioritet sahə kimi Prezident cənab İlham Əliyevin diqqət mərkəzində olmaqla yanaşı, həm də bu istiqamətə xüsusi qayğı göstərilir. Son illər dini sahədə həyata keçirilən islahatların önəmini vurğulayan F.Əliyeva Dövlət Komitəsinin qarşısında duran vəzifələrlə bağlı müvafiq tövsiyələri diqqətə çatdırıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov dövlət başçısı tərəfindən ona göstərilən yüksək etimada görə təşəkkürünü bildirib. Prezident cənab İlham Əliyevin dövlət-din münasibətləri sahəsində qarşıya qoyduğu hədəflərin layiqincə yerinə yetirilməsi, qurumun fəaliyyətinin təkmilləşdirilməsi üçün səylərini əsirgəməyəcəyini qeyd edib.



# PREZİDENT İLHAM ƏLİYEV
## RUSİYANIN ŞİMALİ QAFQAZ REGİONUNUN MÜFTİLƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Rusiya Federasiyası Qaraçay-Çərkəz Respublikasının müftisi İsmayıl Berdiyevin başçılıq etdiyi Rusiya Federasiyası Şimali Qafqaz regionunun müftilərindən ibarət nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinə Çeçenistan Respublikasının müftisi Salah Mejiyev, Stavropol diyarının müftisi Muxamed Raximov, Kabardin-Balkar Respublikasının müftisi Həzrətəli Dzasejev, Şimali Osetiya - Alaniya Respublikasının müftisi Hacımurad Qatsalov, Adigey Respublikasının müftisi Askarbiy Kardanov, Kalmıkiya Respublikasının müftisi Soltanəhməd Karolayev, Şimali Qafqaz İslam Universitetinin rektoru Şarabuddin Çoçayev və Qafqaz Müsəlmanları İdarəsinin Dağıstan Respublikası üzrə nümayəndəsi Şahabiddin Kərimov daxildir.

Söhbət zamanı VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun önəminə toxunularaq, müxtəlif mədəniyyətlər və dinlərarası əlaqələrin qurulmasında bu tədbirin rolu qeyd edilib.

Görüşdə Azərbaycanın Rusiyanın müxtəlif regionları, o cümlədən ölkəmizin tarixi, mədəni köklərlə bağlı olduğu Şimali Qafqaz regionu ilə əlaqələrinin ümumilikdə Azərbaycan-Rusiya ikitərəfli dostluq münasibətlərinin inkişafına töhfə verdiyi vurğulanıb.

Dövlətimizin başçısının Rusiya Federasiyası Şimali Qafqaz regionunun müftilərindən ibarət nümayəndə heyəti ilə əvvəlki görüşləri məmnunluqla xatırlanıb.

Qeyd olunub ki, Azərbaycanın və Rusiyanın Şimali Qafqaz regionunun dini liderlərinin əlaqələri xalqlarımız arasında münasibətlərimizin möhkəmləndirilməsi işinə xidmət edir.

Sonda xatirə şəkli çəkdirilib.

# PREZİDENT İLHAM ƏLİYEV
## RUSİYANIN BAŞ RAVVİNİNİ QƏBUL EDİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Rusiyanın Baş ravvini Berl Lazarı qəbul edib.

Görüşdə VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun beynəlxalq əməkdaşlığın genişləndirilməsində əhəmiyyəti vurğulanaraq, bu tədbirin dünya səviyyəsində dinlər və mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsi işinə böyük töhfə verəcəyi bildirilib.

Söhbət zamanı Azərbaycanda hökm sürən tolerant mühit barədə danışılıb, bütün dinlərin və xalqların nümayəndələrinin ölkəmizdə dinc şəraitdə bir ailə kimi yaşadıqları məmnunluqla qeyd edilib.

# PREZİDENT İLHAM ƏLİYEV
## KAICIID-İN BAŞ KATİBİNİ QƏBUL EDİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin (KAICIID) Baş katibi Zuhair Əlhartini qəbul edib.

Görüşdə dövlətimizin başçısı VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda 110-dan çox ölkənin nümayəndələrinin iştirakını və bu tədbirin dünyada sülh gündəliyinin irəlilədilməsinə, dialoqa və körpülərin qurulmasına xidmət etdiyini diqqətə çatdırıb. COVID-lə əlaqədar Forumun təşkilində müəyyən fasilələrin yarandığını deyən Prezident İlham Əliyev artıq onun fəaliyyətinin tam şəkildə bərpa olunduğunu və davamlı şəkildə keçiriləcəyini qeyd edib.

KAICIID-in Baş katibi bu Forumun yüksək səviyyədə təşkilinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib və dövlətimizin başçısının tədbirin açılışındakı nitqində dünyaya çox vacib mesajlar verdiyini vurğulayıb. O, Azərbaycanın müxtəlif dinlər arasında daim bir harmoniya mərkəzi olduğunu deyib, ölkəmizdəki tərəfmüqabilləri ilə yaxından əməkdaşlıq etdiyini bildirib.

KAICIID tərəfindən həyata keçirilən layihələr barədə məlumat verən Baş katib bundan sonra da Azərbaycanla birlikdə müxtəlif layihələrin reallaşdırılması üçün yaxından işləyəcəklərini diqqətə çatdırıb.

O, həmçinin qeyd edib ki, bu Forum çərçivəsində gündəlikdə duran məsələlər KAICIID tərəfindən də yaxından dəstəklənir.

Dövlətimizin başçısı Azərbaycanın multilateralizmə - çoxtərəfli diplomatiyaya mühüm əhəmiyyət verdiyini bildirib, ölkəmizin Qoşulmama Hərəkatındakı sədrliyini qeyd edib. Prezident İlham Əliyev COVID dövründə Azərbaycanın 80-dən çox ölkəyə dəstək göstərdiyini deyib.

Söhbət zamanı KAICIID-lə Azərbaycanın təsisatları arasında müxtəlif sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub.

# AZƏRBAYCAN İLƏ QIRĞIZISTAN ARASINDA DİNİ SAHƏDƏ ƏMƏKDAŞLIQ HAQQINDA MEMORANDUM İMZALANIB

Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun iştirakı ilə Azərbaycan-Qırğızıstan sənədlərinin imzalanması mərasimi olub.

Qırğız Respublikası Prezidentinin səfəri çərçivəsində, eyni zamanda, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə Qırğız Respublikasının Dini İşlər üzrə Dövlət Komissiyası arasında Anlaşma Memorandumu imzalanıb. Memorandumu Dövlət Komitəsi adından sədr Ramin Məmmədov, qarşı tərəfdən isə müvafiq qurumun direktoru Toyqonbay Abdıkarov imzalayıblar.

Sənəd din sahəsində dövlət siyasətinin aparılması üzrə məlumat və təcrübə mübadiləsi, dini təhsil müəssisələri arasında tərəfdaşlığın dəstəklənməsi və digər qarşılıqlı maraq doğuran məsələlər üzrə əməkdaşlığı özündə əks etdirir.



# DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ ŞƏKİDƏ VƏTƏNDAŞLARI QƏBUL EDİB

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, aprelin 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov Şəki şəhərində vətəndaşları qəbul edib.

Qəbuldan öncə Ümummilli Lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsi ziyarət edilib, xatirəsi ehtiramla yad olunub.

Qəbul zamanı Şəki, Oğuz, Qəbələ şəhər və rayonlarından olan vətəndaşlar İslam dininə aid ibadət yerlərinə din xadiminin təyinatı, dini icmaların kitablarla təmin edilməsi, din xadimlərinə göstərilən maddi dəstək və s. məsələlərlə bağlı müraciətlər ediblər.

Dövlət Komitəsinin aidiyyəti struktur bölmələrinin rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların müraciətləri və təklifləri diqqətlə dinlənilib, ərizələri qəbul edilərək müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.







# DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNDƏ MÜŞAVİRƏ KEÇİRİLİB



Aprelin 4-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) müşavirə keçirilib. Müşavirədə DQİDK-nın Mərkəzi Aparatının və bölgə şöbələrinin müdirləri, tabeliyindəki qurumların, Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin (Agentlik) rəhbərliyi iştirak ediblər.

Müşavirəni giriş sözü ilə DQİDK-nın sədri vəzifəsini müvəqqəti icra edən Səyyad Salahlı açaraq, Ramazan ayında keçirilən tədbirlər və qarşıda duran vəzifələrdən danışıb. Bildirib ki, Dövlət Komitəsi tərəfindən hər il olduğu kimi, bu il də Ramazan ayı boyunca respublikada dini durum nəzarətdə saxlanılıb, məscid və ziyarətgahlarda mütəmadi monitorinqlər keçirilib, eləcə də dini maarifləndirmə sahəsində silsilə görüş və konfranslar təşkil edilib. Ramazan ayı boyu müvafiq tədbirlərin keçirilməsi üçün dini icmalara dövlət tərəfindən lazımi qayğı və dəstək göstərilib.

Dini qurumlarla iş üzrə şöbənin müdiri Cahandar Əlifzadə Ramazan ayı müddətində vahid Ramazan təqviminə riayət olunmasının xüsusi nəzarətdə saxlanıldığını vurğulayıb. Bildirib ki, Ramazan ayı ərzində Dövlət Komitəsinin Mərkəzi Aparatına yerlərdən daxil olmuş məlumatlar ümumiləşdirilərək təhlil olunub, respublikada ümumi dini durumun qiymətləndirilməsi aparılıb.

Eyni zamanda, Dövlət Komitəsi tərəfindən 2023-cü ilin dekabr ayında İslam dininə aid ibadət yerlərində vakant vəzifələrin tutulması üçün elan edilmiş müsahibəyə sənəd qəbulu ilə bağlı məlumat verərək, 5 vakant vəzifənin tutulması üçün 58-i qadın olmaqla 185 nəfərin müraciət etdiyini diqqətə çatdırıb. Şöbə müdiri 2024-cü il 4-6 mart tarixlərində keçirilmiş din xadimlərinin attestasiyasının nəticələrindən danışıb. Qeyd edib ki, attestasiya olunması üçün 61 din xadiminin sənədləri qəbul edilib. Attestasiya Komissiyası tərəfindən onlardan 32 din xadiminin bilik və bacarığının tutduğu vəzifəyə uyğun olduğu, 14-nün uyğun olmadığı, 13 din xadiminin isə bir ildən sonra yenidən attestasiya olunması şərti ilə fəaliyyətini davam etdirməsi məqsədəuyğun sayılıb.

Mənəvi Dəyərlərin Təbliği Fondunun Ramazan ayındakı fəaliyyəti və cari ildə görəcəyi işlər barədə məlumat verən Fondun icraçı direktoru Mehman İsmayılov illik fəaliyyət planında Ramazan ayında icra olunan layihələrə xüsusi yer verildiyini bildirib. Qeyd edib ki, Ramazan ayı münasibətilə Mingəçevir və Sumqayıt şəhərlərində şəhid ailələri, müharibə veteranları, din xadimləri və dini icma üzvləri üçün iftar süfrələri təşkil edilib, Ramazan ayının sonuna qədər Bakı, Gəncə və Naxçıvanda da iftar süfrələrinin təşkili nəzərdə tutulub.

M.İsmayılov Ramazan ayı ərzində sosial şəbəkələrdə Fondun sifarişi ilə hazırlanan videoçarxın nümayiş edildiyini, Fondun ilahiyyatçı əməkdaşlarının televiziya kanallarında efirə gedən, Ramazan ayına həsr olunan proqramlarda iştirak etdiyini nəzərə çatdırıb.

Həmçinin müşavirədə "Heydər Əliyevin 100 illiyi (1923-2023)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilmiş Dövlət Komitəsinin sədr müavinlərinə medallar təqdim edilib.

# DAXİLİ QOŞUNLARIN ALİ HƏRBİ MƏKTƏBİNDƏ "RADİKAL DİNİ CƏRƏYANLARIN MİLLİ TƏHLÜKƏSİZLİYƏ TƏHDİDİ" MÖVZUSUNDA SEMİNAR KEÇİRİLİB

Aprelin 26-da Daxili Qoşunların Ali Hərbi Məktəbində "Radikal dini cərəyanların milli təhlükəsizliyə təhdidi" mövzusunda seminar keçirilib.

Seminarda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov, daxili qoşunların baş idarəsinin şəxsi heyət üzrə idarə rəisinin müavini - mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi polkovnik Şahin Bəylərov iştirak ediblər.

Şəxsi heyətin iştirakı ilə keçirilən seminarı giriş sözü ilə açan Ali Hərbi Məktəbin rəisinin tərbiyə işləri üzrə müavini polkovnik Nəriman İsayev Ali Hərbi Məktəbdə və hərbi hissələrdə bu cür tədbirlərin keçirilməsinin əhəmiyyətindən danışıb. Bildirib ki, Azərbaycan ictimai-siyasi sabitliyinə görə nümunəvi dövlətlərdəndir və qazandığımız bu uğurları həzm edə bilməyən dairələr zaman-zaman din pərdəsi altında öz ideologiyalarını burada yaymağa, cəmiyyətimizdə dini zəmində ayrı-seçkilik toxumları səpməyə çalışırlar. Ancaq onların bu cəhdləri hər zaman iflasa uğrayıb, çünki Azərbaycan xalqı dinin bölücü deyil, birləşdirici amil olduğunu yaxşı bilir və onu özünün mənəvi dəyəri kimi qoruyur.

Sonra S.Heydərov kursantların qarşısında çıxış edərək milli-mənəvi dəyərlərin hər bir cəmiyyət üçün birləşdirici amil olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, Azərbaycan dövləti bütün dinlərin nümayəndələrinin hüquq bərabərliyini təmin edir. Müxtəlif dairələrin Azərbaycanda milli-dini zəmində ayrı-seçkilik yaratmaq cəhdlərinin hər zaman olduğunu deyən məruzəçi Vətən müharibəsinin davam etdiyi günlərdə də bunun müşahidə edildiyini vurğulayıb. Ancaq Azərbaycan xalqı öz müdrikliyini bir daha nümayiş etdirərək sahib olduğu vəhdətin pozulmasına imkan verməyib və şanlı ordusuna, Müzəffər Ali Baş Komandanına güvənib, bir yumruq kimi birləşərək erməni faşizmini məhv edib.

Seminarın gedişatında, həmçinin Vətənə xidmətin ülviliyindən danışan məruzəçi bu şərəfli missiyanın daşıyıcıları qarşısında çıxış etməkdən məmnunluğunu ifadə edib. Bildirib ki, Azərbaycan xalqı hər zaman tolerantlığı ilə seçilib, bütün xalqların, dinlərin nümayəndələrinə qucaq açıb, yardım göstərib. Ancaq təəssüf ki, özü hər zaman haqsızlığa, ədalətsizliyə, soyqırımlarına məruz qalıb. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandanı İlham Əliyevin də dediyi kimi, torpaqlarımız işğalda ikən erməni faşizminə qarşı beynəlxalq müstəvidə heç bir addımın atılmaması bir daha sübut etdi ki, ikili standartlarla idarə olunan müasir dünyada haqlı olmaq hələ hər şey demək



deyil, haqqını almaq üçün mütləq güclü olmalısan. 44 günlük Vətən müharibəsində qazanılan Böyük Zəfər, ərazi bütövlüyümüzün bərpası çoxlarına dərs oldu və göstərdi ki, Azərbaycan xalqı öz müqəddəratını özü müəyyən edir, qarşısında duran bütün hədəfləri dəf etməyə qadirdir.

Sonda kursantlara Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi ilə çəkilmiş "Şəhadət" sənədli filmi nümayiş etdirilib.

# LƏNKƏRANDA DİNİ MAARİFLƏNDİRMƏ TƏDBİRLƏRİ KEÇİRİLİB



Aprelin 30-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) Dövlət Sərhəd Xidməti (DSX) ilə birgə Sərhəd Qoşunlarının "Lənkəran" sərhəd dəstəsində tədbir keçirib.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Tədbirdə Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan uğurlu dövlət-din münasibətlərinin Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev tərəfindən hazırda da yüksək səviyyədə davam etdirilməsi, tolerantlıq ənənələrinin möhkəmləndirilməsi xüsusi vurğulanıb.

DQİDK və İlahiyyat İnstitutunun nümayəndələri "Dinin siyasətləşdirilməsinin milli dövlətçiliyimizə təhlükələri" mövzusunda və bu istiqamətdə aparılan maarifləndirmə işlərinin vacibliyi haqqında çıxış ediblər.

Tədbirdə məzhəb ayrı-seçkiliyi və məzhəblərarası fitnənin fəsadlarından bəhs edən "Fitnə" sənədli filmi nümayiş olunub.

Sonda qonaqlar hərbi hissədə yaradılmış şəraitlə tanış olublar.

* * *

Aprelin 30-da daha bir tədbir DQİDK və Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) birgə təşkilatçılığı, Lənkəran-Astara Regional Təhsil İdarəsinin Lənkəran rayonu üzrə Təhsil sektorunun dəstəyi ilə "Radikal dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda baş tutub.

Lənkəran şəhəri Heydər Əliyev Mərkəzində yeniyetmə və gənclərin iştirakı ilə keçirilən seminarda DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdiri Sadiq Mirzəyev, Azərbaycan İlahiyyat İnstitutunun (AİI) rektor köməkçisi Emin Orucov, DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin müdiri Qağayı Məmmədov, Lənkəran ŞİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Cavad Miriyev, Lənkəran rayonu üzrə təhsil sektorunun əməkdaşı Cəmil Axundzadə iştirak edib.



Seminarı giriş sözü ilə açan DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin müdiri Qağayı Məmmədov yeniyetmə və gənclərin iştirakı ilə keçirilən maarifləndirmə tədbirlərinin əhəmiyyətindən danışıb, Dövlət Komitəsinin bu istiqamətdə fəaliyyəti barədə məlumat verib.

DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdiri Sadiq Mirzəyev dinin siyasiləşdirilməsinin, radikalizm və məzhəb ayrı-seçkilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə mənfi təsirlərindən danışaraq qeyd edib ki, radikal dini cərəyanlara qarşı mübarizədə effektiv dini maarifləndirmə işi vacibdir. Xalqımızın zəngin milli-mənəvi, tolerant və multikultural dəyərlərindən bəhs edən natiq bu dəyərlərin qorunması və geniş təbliğ edilməsinin kənar təsirlərə qarşı mübarizədə əhəmiyyətli rol oynadığını bildirib.

Daha sonra AİI-nin rektor köməkçisi Emin Orucov ali təhsil müəssisəsinə qəbul, mövcud ixtisaslar, tədris prosesi haqqında təqdimatla çıxış edib. İnstituta qəbul olunmuş hər bir tələbənin dövlətin qayğı və diqqəti ilə əhatə olunduğunu vurğulayıb. Bildirib ki, institutda təhsil alan tələbələr pulsuz geyim və yeməklə təmin olunur, dərslərdən əlavə, xarici dil kurslarına cəlb edilirlər.

Digər natiqlər də çıxışlarında keçirilən seminarın vacibliyini vurğulayıblar.

* * *

Aprelin 30-da DQİDK-nın təşkilatçılığı ilə Lənkəran şəhərində Azər Məhərrəmov adına 7 nömrəli tam orta məktəbdə baş tutan maarifləndirici seminarda da Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdiri Sadiq Mirzəyev, AİI-nin rektor köməkçisi Emin Orucov, DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin müdiri Qağayı Məmmədov, məktəbin direktoru Aynur Mirzəyeva, müəllimlər və yuxarı sinif şagirdləri iştirak ediblər.

Seminarı giriş sözü ilə açan Qağayı Məmmədov yeniyetmə və gənclərin iştirakı ilə keçirilən maarifləndirmə tədbirlərinin əhəmiyyətindən bəhs edib.

Milli-mənəvi dəyərlərimizin qorunmasının vacibliyindən danışan Sadiq Mirzəyev qeyd edib ki, Azərbaycan dövləti dini etiqadından asılı olmayaraq, bütün vətəndaşlara öz inanclarını yaşamaq üçün lazımi şərait yaradıb və xalqın keçmişinə, milli-mənəvi dəyərlərinə qayğı göstərir. Ölkəmizdə tarixən müxtəlif dinlərin, məzhəblərin nümayəndələri dinc, birgəyaşayış şəraitində yaşayıb. Bu ənənə günümüzdə də yüksək səviyyədə qorunub saxlanılır. Çünki xalqımız hər zaman öz yüksək tolerantlıq mədəniyyəti və multikultural dəyərləri ilə seçilib. Xalqımıza xas olan bu keyfiyyət müasir dövrdə dövlətimiz tərəfindən daha da inkişaf etdirilərək xüsusi diqqətdə saxlanılan istiqamətlərdən birinə çevrilib.

Emin Orucov isə təqdimatla çıxış edərək AİI-yə qəbul qaydaları, mövcud ixtisaslar, tədris prosesi haqqında məlumat verib. İnstitutda təhsil alan tələbələrə dövlət tərəfindən göstərilən diqqət və qayğıdan bəhs edib.

Qarşılıqlı müzakirələrlə davam edən tədbirlərdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# DİN ADINDAN SUİ-İSTİFADƏ TƏKCƏ İNSANLARA ZİYAN VURMUR, DİNİ DƏ GÖZDƏN SALIR

Mənsub olduğumuz dinin düzgün, xurafatdan uzaq təbliği insanların həyatına asanlıq gətirdiyi kimi, həqiqətə uyğun olmayan məlumatlar ciddi problemlərə yol aça bilir. Din adından sui-istifadə təkcə insanlara ziyan vurmur, dini də gözdən salır. Bu baxımdan, dini məlumatların geniş yayılmasında rol oynayan vasitələrdən olan kitabların, audio və video materialların zərərli təbliğatdan, xurafatdan uzaq olması vacibdir. Bu qəbildən olan nəşrlərə dövlət qurumları tərəfindən nəzarət olunur.

**Ölkəmizdə dini təyinatlı ədəbiyyatın (kağız və elektron daşıyıcılarda), audio və video materialların satışına hansı formada nəzarət olunur?**

TNS-in bu barədə suallarını Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədov cavablandırıb.

Şöbə müdiri bildirib ki, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 22-ci maddəsinin 2-ci bəndinə əsasən, dini qurumlar, dini qurum olmayan digər hüquqi və fiziki şəxslər Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin razılığı ilə dini təyinatlı ədəbiyyatı (kağız və elektron daşıyıcılarında), audio və video materialları, mal və məmulatları və dini məzmunlu başqa məlumat materiallarını istehsal, idxal, ixrac edə, habelə onları nəzarət markası ilə markaladıqdan sonra sərbəst yaya bilərlər: "Komitənin razılığını əldə etmək üçün quruma müraciətlər əsasında "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununun 29-cu maddəsinin 10-cu abzasının tələblərinə uyğun olaraq, Dövlət Komitəsi dinşünaslıq ekspertizası aparır. Müsbət cavab almış və satış üçün nəzərdə tutulmuş dini ədəbiyyatlar nəzarət markası ilə markalandıqdan sonra "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 22-ci maddəsinə əsasən, yalnız ixtisaslaşdırılmış satış məntəqələrində satıla bilər".

Dini ədəbiyyatların satışına nəzarət məsələlərinə gəlincə, Komitə rəsmisi bu istiqamətdə mütəmadi tədbirlər görüldüyünü bildirib: "Dövlət Komitəsi yeni yarananda bu məsələ ilə bağlı ciddi problemlər var idi. Zaman keçdikcə qanunvericiliyin təkmilləşdirilməsi, bu sahədə aparılan maarifləndirmə işləri və treninqlər, eləcə də qanunsuz satışın qarşısını almaq üçün atılan addımlar, hüquq pozuntusuna yol vermiş şəxslərin inzibati və cinayət məsuliyyətinə cəlb edilməsi nəticəsində ciddi irəliləyişə nail olunub. Son illərdə bu istiqamətdə ciddi müsbət dəyişiklik var. Artıq heç bir hüquqi və fiziki şəxs qanunsuz dini ədəbiyyatın satışı ilə məşğul ola bilməz. Bunlara baxmayaraq, ədəbiyyat satışı ilə məşğul olan bütün kitab mağazalarına, böyük ticarət obyektlərinə mütəmadi baxış keçirilir. Buna sübut kimi ötən ilin sonunda keçirilmiş ölkə üzrə kütləvi monitorinqi göstərə bilərik. Monitorinq zamanı qanunsuz dini ədəbiyyatların satışının həyata keçirilməsi faktına rast gəlinməyib".

**Ölkə üzrə neçə ixtisaslaşmış satış məntəqəsi fəaliyyət göstərir?**

Nahid Məmmədovun sözlərinə görə, hazırda dini təyinatlı ədəbiyyatın satışı ilə məşğul olan mağazalar daha çox hədiyyəlik əşyalar satır: "Hazırda ölkəmizdə dini təyinatlı ədəbiyyatın, audio və video materialların satışını həyata keçirə bilmək üçün 45 ixtisaslaşmış satış məntəqəsinə müvafiq razılıq verilib. Lakin müşahidələrimiz göstərir ki, dini ədəbiyyatın alıcıları azaldıqca həmin mağazalar daha çox hədiyyəlik əşyaların satışı ilə məşğul olmağa üstünlük verir".

# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, insanların mənəvi baxımdan daha sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini 2024-cü ilin aprel ayı ərzində də davam etdirmişdir.*

**Cari ay ərzində bu qəbildən olan tədbirlər:**

**2 aprel** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qusar rayonunda yerləşən hərbi hissədə "Vətən müdafiəçisinin əxlaq kodeksi" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gədəbəy rayonunda yerləşən "N" saylı hərbi hissədə;

**3 aprel** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Balakən rayonunun Mikayıl Müşfiq adına Gərəkli kənd tam orta məktəbində "Məktəblilərin dünyagörüşünə təsir edən amillər" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Siyəzəndə "Xalqımızın tolerantlıq ənənələrinin və multikulturalizm siyasətinin milli həmrəyliyimizin möhkəmləndirilməsində əhəmiyyəti" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhər N.Nərimanov adına 25 saylı tam orta məktəbində "Yeniyetmə və gəncləri dini radikalizmdən qoruyaq!" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Beyləqan rayonundakı "N" saylı hərbi hissədə "Aprel döyüşləri: Şanlı Zəfərə aparan yol" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Göygöl rayonunda yerləşən "N" saylı hərbi hissədə "İntihar və özünəxəsarət İslam dinində qəbuledilməzdir" mövzusunda;

**4 aprel** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Kürdəmir Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə rayonun Tarix-Diyarşünaslıq Muzeyində "Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərimizin rolu" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Mərkəzi Aran Regional Təhsil və Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Ucar şəhər 6 saylı tam orta məktəbdə "Aprel döyüşləri: Qələbənin ilk yolu" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Kürdəmir RİH-in birgə təşkilatçılığı ilə Kürdəmir şəhər Peşə Liseyində "Aprel döyüşləri: Şanlı zəfərə aparan yol" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağdaş rayonunda "Müqəddəs Ramazan ayı - birlik və bərabərlik bayramı" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax rayonu Calayır kənd tam orta məktəbində "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Quba Tibb Kollecinin birgə təşkilatçılığı ilə "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınması: milli ailə dəyərləri zəminində hüquqi və mənəvi aspektlər" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Yevlaxda "On bir ayın sultanı: Ramazan bayramı" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə "Tolerantlıq ənənələrinin və multikulturalizm siyasətinin milli həmrəyliyimizin möhkəmləndirilməsindəki rolu" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Daşkəsən rayonunda yerləşən "N" saylı hərbi hissədə "Zərərli vərdişlər və özünə xəsarət yetirmənin sosial-psixoloji aspektləri" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Tovuz və Qazax rayonlarında yerləşən "N" saylı hərbi hissədə "Vətən müharibəsindəki qələbəmizdə milli birliyimizin və mənəvi dəyərlərin rolu" və "Vətəni qorumağın fəzilətləri" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucar rayonunun Qazyan kənd 1 saylı tam orta məktəbində "Təhsil, vətənpərvərlik və milli dəyərlər" mövzusunda;

**5 aprel** – DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə rayonun Kəhrizli kənd tam orta məktəbində "Narkomaniya və zərərli vərdişlərə qarşı mübarizə" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Kürdəmirdə Ramazan bayramı ilə əlaqədar; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Yardımlı rayonunda "Erkən nikah problemi və ona qarşı mübarizə yolları" mövzusunda; DQİDK və Xətai RİH-in təşkilatçılığı ilə Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində "Azərbaycan dünyada multikulturalizm və tolerantlıq nümunəsidir" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Samux rayonunun İstixana qəsəbəsi ümumi orta məktəbində "Dini radikalizmin törətdiyi bəlalar" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Şabran rayonunda "Erkən nikah: hüquqi, dini və mənəvi müstəvidə" mövzusunda;

**6 aprel** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Cəlilabad şəhər 9 saylı tam orta məktəbində; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Zaqatala şəhər Z.Murtuzəliyev adına 1 saylı tam orta məktəbdə; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Xaçmaz şəhər "Təzə şəhər" məscidində; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə İsmayıllı rayonunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Yevlax şəhərində və Mingəçevir şəhər 16 saylı tam orta məktəbində; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Şəmkir rayonunda yerləşən "N" saylı hərbi hissədə və DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Lənkəranda "Aprel döyüşləri: Şanlı zəfərə aparan yol" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Tovuz və Şəmkir rayonlarında yerləşən "N" saylı hərbi hissədə "Hərbi qulluqçuların arasında vətənpərvərlik ruhunun yüksəldilməsində dini dəyərlərin rolu", "Müqəddəs mənbələrdə Vətəni müdafiə məsələləri" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı və bölgənin din xadimlərinin iştirakı ilə Ramazan bayramı namazının Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) fətvasına uyğun olaraq qılınması ilə bağlı;

**8 aprel** – DQİDK və Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin birgə Tədbirlər Planına əsasən 9 və 16 saylı cəzaçəkmə müəssisələrində "Milli dövlətçiliyimiz və mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucar rayonunda Ramazan bayramı münasibətilə; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və QMİ-nin Lənkəran bölgəsi üzrə Qazılığının birgə təşkilatçılığı ilə "Aprel döyüşləri: Şanlı Zəfərə aparan yol" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialında "Aprel döyüşləri: böyük Zəfərin başlanğıcı" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı və bölgənin din xadimlərinin iştirakı ilə Ramazan bayramı namazının QMİ-nin fətvasına uyğun olaraq qılınması ilə bağlı; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və QMİ-nin səlahiyyətli nümayəndəliyinin birgə təşkilatçılığı ilə Göyçayda Ramazan bayramı ilə əlaqədar; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qubada "Narkomaniya bəşəriyyətin bəlasıdır" mövzusunda; DQİDK-nın təşkilatçılığı ilə Daşkəsən rayonunda yerləşən "N" saylı hərbi hissədə "Vətən müharibəsindəki qələbəmizdə milli birliyimizin və mənəvi dəyərlərin rolu" mövzusunda;

**9 aprel** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Yevlaxda "Ramazan ayı - dini həmrəylik və milli-mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Zaqatala rayonu Abdurahman Qurbanov adına Üçüncü Tala kənd tam orta məktəbində "Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərin rolu" mövzusunda;

**16 aprel** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran-Astara Regional Təhsil İdarəsinin Lənkəran rayonu üzrə təhsil sektorunun birgə təşkilatçılığı ilə rayonun Səpnəkəran kənd tam orta məktəbində "Radikal dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba-Xaçmaz Regional Gənclər və İdman İdarəsinin Şabran rayonu üzrə Gənclər və İdman sektorunun birgə təşkilatçılığı ilə Şabran rayonu Pərviz İdrisov adına Ağbaş kənd tam orta məktəbində "Yeniyetmə və gənclərin pis vərdişlərdən qorunmasında mənəvi və dini dəyərlərin rolu" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə rayonun Məmməd Buraqov adına Yolayrıc kənd tam orta məktəbində "Uşaqların

Davamı səh. 14

# QISA-QISA

Əvvəli səh. 13

vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran-Astara Regional Təhsil İdarəsinin Lənkəran rayonu üzrə təhsil sektorunun birgə təşkilatçılığı ilə rayonun Şıxakəran kənd tam orta məktəbində "Uşaqların vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi" mövzusunda;

**17 aprel** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Samux Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə rayonun Tatlı kənd ümumi orta məktəbində "Gəncləri təhsilə yönəldək" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Balakən rayonu Nəriman Nərimanov adına Mahamalar kənd tam orta məktəbində "Narkomaniyanın fiziki, mənəvi və sosial fəsadları" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Lənkəran-Astara Regional Gənclər və İdman idarəsinin Masallı rayonu üzrə gənclər və idman sektorunun birgə təşkilatçılığı ilə rayonun Hişkədərə kənd Elşad Ağayev adına tam orta məktəbində "Dini radikalizm və ekstremizmə qarşı mübarizədə gənclərin rolu" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Naftalan Gənclər və İdman sektorunun birgə təşkilatçılığı ilə Naftalanda "Milli-mənəvi dəyərlərin təbliğində gənc nəslin rolu" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH və İnsan Hüquqları üzrə Müvəkkilin Quba regional mərkəzinin birgə təşkilatçılığı ilə "Şuşa - İslam mədəniyyətinin paytaxtı" mövzusunda;

**17 aprel** – DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Şəki Tibb Kollecində "Narkomaniya və onun törətdiyi fəsadlar" mövzusunda;

**18 aprel** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Saatlı şəhər V.Əsgərov adına 4 nömrəli tam orta məktəbində "Qızları təhsildən yayındırmağın hüquqi və mənəvi məsuliyyətləri" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran-Astara Regional Təhsil İdarəsinin Astara rayonu üzrə təhsil sektorunun birgə təşkilatçılığı ilə rayonun Rudəkənar kənd orta məktəbində "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və fəsadları" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran-Astara Regional Təhsil İdarəsinin Astara rayonu üzrə təhsil sektorunun birgə təşkilatçılığı ilə rayonun Suparibağ kənd tam orta məktəbində "Uşaqların vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi" mövzusunda; DQİDK-nın təşkilatçılığı ilə Bakı şəhəri Nizami rayonu şəhid Kamil Eyyubov adına 12 nömrəli tam orta məktəbdə "İnsan hüquqları aylığı" çərçivəsində "Dini fanatizm, radikalizm, ekstremizmə qarşı mübarizə istiqamətində dini maarifləndirmə" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Qax RİH, Şəki-Zaqatala Regional Təhsil İdarəsi, Şəki-Zaqatala regional Gənclər və İdman İdarəsinin Qax rayonu üzrə gənclər və idman sektoru, Gənclərin İnkişaf və Karyera Mərkəzinin Şəki-Zaqatala regional nümayəndəliyinin birgə təşkilatçılığı ilə Qax rayonu Zəyəm kənd tam orta məktəbində "Korrupsiyaya qarşı mübarizə" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Mərkəzi Aran Regional Gənclər və İdman İdarəsinin Ucar rayon sektorluğunun birgə təşkilatçılığı ilə Ucar şəhər 4 saylı tam orta məktəbində "Milli-mənəvi dəyərlərimizin qorunmasında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda; DQİDK-nın təşəbbüsü və Suraxanı RİH-in təşkilatçılığı ilə "Milli birliyin möhkəmlənməsində mənəvi dəyərlərin rolu" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qəbələ rayonunun Zarağan kənd 1 saylı tam orta məktəbində "Yeniyetmə və gəncləri dini radikalizmdən qoruyaq!" mövzusunda;

**19 aprel** - DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Zərdab şəhər Peşə Liseyində "Radikal dini cərəyanların mahiyyəti və gənclərə psixoloyi təsir üsulları" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Şəki şəhər 4 saylı musiqi məktəbində "Narkomaniya və onun törətdiyi fəsadlar" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Beyləqan Rayon Peşə məktəbində "Radikal dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda;

**22 aprel** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə İmişli Peşə Məktəbində "Yeniyetmələr və gənclər arasında təhlükəsiz reproduktiv sağlamlıq davranışlarının və sağlam həyat tərzi vərdişlərinin formalaşdırılması" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Daşkəsən şəhər 2 saylı tam orta məktəbində "Uşaq hüquqlarının qorunmasında Ombudsman təsisatının rolu" mövzusunda;

**23 aprel** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Goranboy rayon Təhsil Sektorunun birgə təşkilatçılığı ilə Tatarlı kənd tam orta məktəbində "Dini radikalizmlə mübarizədə milli-mənəvi dəyərlərin rolu" mövzusunda;

**24 aprel** – DQİDK və Sabunçu RİH-in birgə təşkilatçılığı ilə "Heydər Əliyev və milli dəyərlərimizə qayıdış" mövzusunda; Zaqatala şəhər Vətən Müharibəsi Qəhrəmanı Şixamir Qaflanov adına Humanitar fənlər təmayüllü gimnaziyada "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasında dini icmaların rolu" mövzusunda; Siyəzən şəhər Nazim Əsədov adına 4 saylı tam orta məktəbində "Uşaq hüquqlarının qorunması: erkən nikah problemi və ona qarşı mübarizə yolları" mövzusunda; Ucar rayonunda "Selektiv abort hüquqi və mənəvi aspektləri" mövzusunda; Ağstafada "Məktəblilərin mənəvi dünya görüşünə təsir edən amillər" mövzusunda; Gəncə şəhərində yerləşən Aqrar Universitetdə "Radikal və ekstremist təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda; Balakən rayonu Katex zavod kənd tam orta məktəbində "Sağlam həyat tərzi uğurlu gələcəyin zəmanətidir" mövzusunda; Xocavənd rayonununda "Məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillər" mövzusunda; "Dinin siyasiləşdirilməsi milli təhlükəsizliyə təhdid kimi" mövzusunda; Zərdab rayonunda "Milli dövlətçiliyimizin möhkəmlənməsi: Azərbaycançılıq ideologiyası və milli-mənəvi dəyərlərimiz" mövzusunda;

**25 aprel** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Biləsuvar və DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax rayonlarında "Tolerantlıq ənənələrinin və multikulturalizm siyasətinin milli həmrəyliyimizin möhkəmləndirilməsində rolu" mövzusunda; DQİDK və Qaradağ RİH-in birgə təşkilatçılığı ilə Qobustan qəsəbəsində yerləşən 321 nömrəli tam orta məktəbdə "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və fəsadları" mövzusunda; Yardımlı rayonunun Avaş kəndi N.Cəfərov adına tam orta məktəbində "Məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillər"; Cəlilabad rayonunun Sərhədabad kənd orta məktəbində "Dini radikalizm və xurafata qarşı mübarizədə gənclərin rolu"; Ağcabədi rayonunun Parioğullar kənd tam orta məktəbində "Narkomaniya və zərərli vədişlərə qarşı mübarizə"; Ucar rayonunun Qazyan kənd 3 saylı tam orta məktəbində "Zərərli vərdişlər və onların həyatımıza neqativ təsiri"; Samux rayonunun Yenikənd tam orta məktəbində "Aprel döyüşləri: Şanlı zəfərə aparan yol"; Salyan rayonunda "İslam dünyasının mədəniyyət paytaxtı – Şuşa şəhəri"; Qazax rayonunda "Narkomaniyanın fiziki, mənəvi və sosial fəsadları" mövzularında;

**26 aprel** – DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gədəbəy rayonunda "Narkomaniyanın fiziki, mənəvi və sosial fəsadları" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Göyçay rayonunda "Ənənəvi İslam dəyərləri dini radikalizmə qarşı" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucar rayonunda "Milli-mənəvi dəyərlərimizin təbliği" mövzusunda;

**30 aprel** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Zaqatala rayonunun Danaçı kənd 2 saylı tam orta məktəbində "Dinin siyasiləşdirilməsi milli təhlükəsizliyə təhdid kimi" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucar şəhər 1 saylı texniki-humanitar liseyində "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Samux Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə Samux şəhər 3 saylı tam orta məktəbində "Radikal dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Şəmkir rayonunda "Qloballaşma dövründə gənclər arasında milli ailə dəyərlərinin əhəmiyyəti" mövzusunda baş tutub.

Tədbirlərdə DQİDK-nın bölgə şöbələrinin əməkdaşları ilə yanaşı, rayon icra hakimiyyətləri və aidiyyəti qurumların nümayəndələri, rayon təhsil, gənclər və idman sektorlarının, rayon polis şöbələrinin və digər regional qurumların əməkdaşları, rayonların dini icma sədrləri və din xadimləri, QMİ-nin səlahiyyətli nümayəndələri, o cümlədən hərbçilər, şəhid ailələrinin üzvləri, müharibə veteranları, qazilər, müəllimlər və şagirdlər, ictimaiyyət nümayəndələri və gənclər iştirak ediblər.

Çıxışlarda mövzuların aktuallığından bəhs olunub və DQİDK-nın müvafiq qurumlarla birgə həyata keçirdiyi maarifləndirmə işinin önəmi diqqətə çatdırılıb. Natiqlər yeniyetmə və gənclər arasında milli-mənəvi dəyərlərimizin təbliğinin vacibliyi məsələsinə toxunublar, milli kimliyimizin qorunmasında mənəvi dəyərlərin mühüm rol oynadığını vurğulayıblar. O da vurğulanıb ki, müasir dövrdə bilikli, savadlı olmaq, dünyaya Vətənimizin zəngin mədəniyyətini və tarixini tanıtmaq hər bir vətəndaşın mənəvi borcudur.

Qeyd edilib ki, tarixin bütün dövrlərində millətin və xalqın ictimai şüur səviyyəsini əks etdirən adət və ənənələr həm də mədəni tərəqqinin, əxlaqi xüsusiyyətlərin göstəriciləridir. İştirakçılar əsrlər boyu ölkəmizdə bütün dinlərin, etnik qrupların nümayəndələrinin əmin-amanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşadığını diqqətə çatdırıblar. Bildiriblər ki, Azərbaycanda uğurlu inkişafın, sabitliyin bərqərar olması istiqamətində atılmış bütün addımların arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır.

Çıxışlar zamanı qeyd edilib ki, milli dəyərlərimizin qorunması və inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Milli dəyərlərimizə, soykökümüzə qayıdışın, milli hisslərimizin oyanışının xalqımız üçün gərəkliliyini nəzərə alan, hər zaman bu sahəni diqqət mərkəzində saxlayan Ümummilli Liderimizin Azərbaycana rəhbərliyi dövründə xalqımızın milli oyanışının əsası qoyulub. Qloballaşan dünyada öz dəsti xətti ilə seçilən Azərbaycan xalqının soy köklərinə bağlı qalması və bu siyasətin həyata keçirilməsində cənab Prezident İlham Əliyevin müstəsna xidmətlərinin olması dönə-dönə vurğulanıb.

Çıxışlar zamanı Aprel döyüşləri barədə məlumat verilib. Eyni zamanda torpaqlarımızın işğaldan azad edilməsi ilə nəticələnən Vətən müharibəsi haqqında danışılıb. Natiqlər qeyd ediblər ki, 2016-cı ilin Aprel döyüşləri Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan əsgərinin döyüş və mənəvi-psixoloji hazırlığının, qələbə əzminin yüksək olduğunu nümayiş etdirdi.

Gənclərə diqqət və qayğı göstərilməsinin, sağlam düşüncəli yeni nəslin yetişdirilməsi sahəsində misilsiz işlər görülməsinin dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu diqqətə çatdıran natiqlər dini radikalizm və ekstremizmdən, onların törətdiyi sosial bəlalardan bəhs ediblər. Habelə dini radikalizm və ekstremizmə qarşı mübarizə sahəsində aparılan tədbirləri, radikalizmin mahiyyəti, yaranma şəraiti, gerçəkləşdirilmə üsulları və onlardan qorunma yolları barədə geniş məlumat veriblər. Çıxışlar zamanı narkomaniya, onun törətdiyi fəsadlar və bununla bağlı ölkəmizdə aparılan mübarizə tədbirlərindən də danışılıb. "Ağ ölüm"ün ailə və cəmiyyət üçün yaratdığı problemlər diqqətə çatdırılaraq bildirilib ki, sağlam cəmiyyətimiz üçün belə zərərli vərdişlərdən uzaq durmaq lazımdır. Həmçinin vurğulanıb ki, bu gün bütün dünyada olduğu kimi ölkəmizdə də erkən nikahın doğurduğu fəsadlar, cəmiyyətə vurduğu ziyan mühüm və aktual problemlərdən biri olaraq qalır. Son illər Azərbaycanda ziyalı, savadlı qadınların özlərini inkişaf etdirmələri üçün münasib şərait yaradılıb. Qızların cinsi ayrı-seçkilik edilmədən təhsil almaları üçün lazım olan bütün addımlar atılıb. Lakin bu görülən işlərə baxmayaraq, kütləvi olmasa da, bəzi bölgələrdə erkən nikahlar və bunun kimi müxtəlif səbəblərdən qızların təhsildən yayınması halları baş verir. Erkən nikahla bağlı problemlərin aradan qaldırılması baxımından maarifləndirici tədbirlərin təşkili, yeniyetmə və gənclərlə müntəzəm olaraq görüşlərin keçirilməsi böyük əhəmiyyət daşıyır.

Müzakirələrlə davam edən tədbirlərdə mövzu ilə bağlı iştirakçıları maraqlandıran suallar cavablandırılıb.



# VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

*2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini növbəti dəfə pozmasına cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi ilə başlayan "Dəmir Yumruq" əməliyyatı - 44 günlük Vətən müharibəsi illərdir həsrətində olduğumuz Qarabağın işğaldan azad olunması ilə nəticələndi. İşğalda olan torpaqlarımızı azad etmək üçün böyük həsrətlə gözləyən xalqımızın növbəti erməni təcavüzünə qarşı göstərdiyi əsrarəngiz reaksiya – Vətənin müdafiəsi və ərazi bütövlüyünün bərpası naminə bir yumruq kimi birləşməsi həm də uzun illər ona edilən haqsızlığa qarşı döyüş ruhunun təcəssümü idi. Bu gün hər bir azərbaycanlı qələbəni yaşamaqla bərabər, bu yolda canını fəda edən Vətən övladlarının əziz xatirəsini də unutmur, daim onları yad edir və əbədiyyən qəlbində yaşadacaq. Çünki Vətən uğrunda canından keçən şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz 44 gün ərzində gələcək nəsillərimiz üçün örnək olacaq şanlı tarix yazdılar. Ümumiyyətlə, torpağı Vətənə çevirən, onu müqəddəsləşdirən, özlərini bu yolda fəda edənlər şəhidlərdir. Bu səbəbdən onların hər birini tanımaq və tanıtdırmaq hər birimizin borcudur. Bu mənəvi borcdan irəli gələrək, "Cəmiyyət və Din" qəzeti 2021-ci ildəki ilk sayından etibarən şanlı zəfər tariximizi yazan şəhidlərimiz haqqında böyük fəxarət hissi ilə öz oxucularına məlumat verir, onların şərəfli ömür yollarına işıq tutmağa çalışır.*



**Balakişiyev Qara Əmirxan oğlu**

Torpaqlarımızın azadlığı uğrunda canından keçmiş şəhidlərimizdən biri də Balakişiyev Qara Əmirxan oğludur. Əslən Xocavənd rayonunun Əmiranlar kəndindən olan şəhidimiz 11 iyul 1994-cü ildə Beyləqan rayonunda doğulub. Valideynlərindən Xocavəndlə bağlı eşitdiyi xatirələrlə böyüyən Qara uşaqlığından məcburi köçkünlüyün bütün ağrı-acılarını çəkib. Vətən həsrəti, yurd nisgilini hər zaman öz ürəyində daşıyan qəhrəmanımız 2000-ci ildə Xocavənd rayonu 4 saylı tam orta məktəbin 1-ci sinfinə gedib, 2011-ci ildə həmin məktəbin 11-ci sinfini bitirib. O, 2012-ci ilin iyul ayında Xocavənd rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarında xidmətdə olduğu müddətdə şəxsi heyət arasında xüsusi bacarıq göstərib, əsgər yoldaşlarının və komandir heyətinin etimadını qazanıb. 2014-cü ilin yanvarında hərbi xidmətini layiqincə başa vuran Qaranın torpağa bağlılığı, Vətənə sevgisi onu yenidən ordu sıralarına calb edib. 2014-cü ilin aprelində sənədlərini "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verən qəhrəmanımız kursu uğurla bitirərək Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə manqa komandiri vəzifəsində xidmətə başlayıb.

Hərbçi kimi fəaliyyətə başladığı ilk dövrlərdən nizam-intizamı və öz peşəsinə bağlılığı ilə seçilən Qara təlimlərdə də üzərinə düşən işin öhdəsindən yüksək səviyyədə gəlib. 2016-cı ilin Aprel döyüşlərində iştirak edən şəhidimiz qarşı tərəfin müdafiə və hücum qüvvəsinin, xüsusilə, "yenilməz Ohanyan xətti"nin 40 dəqiqə ərzində darmadağın edilməsində aktiv iştirak edib. Kiçik çavuş kimi qatıldığı Aprel döyüşlərdən sonra xidmətində fərqləndiyinə görə 2016-cı ildə yaradılan "Həmlə" taboruna təyinat alaraq "BTR-82"-də sürücü-mexanik vəzifəsində fəaliyyətini davam etdirib.

2020-ci il sentyabrın 27-də düşmən təxribatının qarşısını almaq üçün əvvəlcə əks-hücum, sonra hücum əməliyyatına keçən Azərbaycan ordusu ilk saatlardan düşmənin bir neçə müdafiə səngərlərini yarıb keçir. Geriyə çəkilən düşmən əvvəldən hazırlanmış müdafiə istehkamlarına sığınaraq ordumuza müqavimət göstərməyə çalışır. Həmin gün döyüşlərdə Qara ilə yanaşı, iki qardaşı da iştirak edirdi. Şəhidimizin qardaşı Mirqəmət 27 sentyabr gününü belə xatırlayır: "Döyüşə birlikdə girdik. İlk vaxtlar baş verənləri anlamaqda çətinlik çəkirdik. İllər sonra hamımızın arzuladığı günün gəlib çatdığını görmək bizdə sevinc yaratmışdı. Əsgərlər arasında canfəşanlıq vardı. Birinci səddi yardıqdan sonra müxtəlif istiqamətlərdə irəlilədik. Qardaşım ilə axırıncı görüşüm bu zaman oldu. Onu qucaqladım və sağollaşdıq".

"Həmlə" taborunun tərkibində qatıldığı döyüşdə "BTR-82"-də sürücü-mexanik olan Qara birinci eşalon yarıldıqdan sonra ikinci eşalona doğru irəliləyir. Lakin Qaranın da içərisində olduğu zirehli maşın vurulur. Zərbə maşını çox da zədələmir, ancaq bu vəziyyətdə onu idarə etmək mümkün olmur. Fərdi silahını götürüb maşından çıxarkən düşmən tərəfindən atəşə tutulur və başından yaralanan qəhrəmanımız şəhidlik zirvəsinə ucalır.

Qara Beyləqan rayonunda yerləşən Xocavənd şəhərciyində dəfn olunub.

Şəhidimiz ailəli idi: Nazimə və Xədicə adlı iki qız övladı var.

Qəhrəmanlığı və cəsurluğu ilə seçilən kiçik çavuş Balakişiyev Qara Əmirxan oğlu iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilib.



**Baxşəliyev Nicat Ziyafət oğlu**

Qəhrəmanımız Baxşəliyev Nicat Ziyafət oğlu 1993-cü il iyunun 16-da Bərdə şəhərində dünyaya göz açıb. 2000-ci ildə Fəxrəddin Muradov adına Bərdə şəhər 7 saylı tam orta məktəbin 1-ci sinfinə gedib, 2009-cu ildə 9-cu sinfi bitirərək Ağdam Dövlət Sosial-İqtisadi Kollecinə qəbul olub. 2011-ci ildə kolleci bitirən Nicat həmin ilin iyul ayında Bərdə rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Silahlı Qüvvələrin Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissəsində pulemyotçu əsgər kimi xidmət edən Nicat hərbi qulluqda olduğu müddətdə özünü vəzifə borclarına layiqincə yanaşan, üzərində məsuliyyəti dərindən dərk edən əsgər kimi göstərib. 2013-cü ilin yanvar ayında hərbi xidmətini uğurla başa vuran şəhidimiz 2016-cı ildən "Azəriqaz" İstehsalat Birliyinin Tərtər Regional Qaz İstismarı İdarəsinin Bərdə Xidmət Sahəsində çilingər kimi işə başlayıb. Qısa müddətdə işlədiyi kollektivdə hər kəsin hörmətini qazanıb.

2020-ci ilin 12 iyulunda düşmənin təxribatı nəticəsində Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində gedən şiddətli döyüşlər bir çoxları kimi Nicatın da həyatının dönüş nöqtəsi olub. Milli Qəhrəman general-mayor Polad Həşimovun şəhadətindən sonra o, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Bərdə rayon şöbəsinə könüllü olaraq müraciət edib. 2020-ci il sentyabrın 21-də ordu sıralarına çağırılan qəhrəmanımız Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissəyə aparılıb. Bir həftəyə yaxın təlimlərdə iştirak etdikdən sonra sentyabrın 27-dən döyüşlərə qatılıb. Düşmənin müdafiə istehkamının yarılmasında iştirak edib, bir neçə post və Suqovuşanın azad olunması uğrunda gedən döyüşlərdə xüsusi fədakarlıqlar göstərib.

Döyüş yoldaşlarının sözlərinə görə, ən ağır döyüş əməliyyatlarının iştirakçısı olan Nicat heç vaxt ruh yüksəkliyini aşağı salmır, özünə və döyüş yoldaşlarına motivasiya verirdi. Qəhrəmanımız oktyabrın 18-də Ağdərə istiqamətində "Tülkü dərəsi" adlanan ərazidə şəhid olub. Şəhidimiz öz vəsiyyətinə uyğun olaraq dünyadan vaxtsız köçən anasının yanında torpağa tapşırılıb.

Nicat subay idi. Onun bir qardaşı var.

Şücaəti və qorxmazlığı ilə seçilən əsgər Baxşəliyev Nicat Ziyafət oğlu iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.



**Bağırov Süleyman Loğman oğlu**

Azərbaycan xalqının 30 illik torpaq həsrətinə son qoyan 44 günlük Vətən müharibəsində şəhid olan qəhrəmanlarımızdan biri də leytenant Bağırov Süleyman Loğman oğludur. O, 1992-ci il fevralın 1-də Sabirabad rayonunun Sarxanbəyli kəndində dünyaya gəlib. Doğulduğu ildən valideynləri ilə Şirvan şəhərində yaşayan Süleyman orta təhsilini Şirvan şəhər Məftun Osmanov adına 20 nömrəli tam orta məktəbdə alıb. Eyni zamanda şahmat məktəbinə də gedib. Azərbaycan dili və ədəbiyyatı, eləcə də tarix fənlərinə xüsusi maraq göstərən Süleyman dəfələrlə regional fənn olimpiadalarının qalibi olub. Qəhrəmanımız şahmat sahəsində də uğurlu nəticələri ilə seçilib.

2010-cu ildə məktəbi bitirib Bakı Mədəniyyət və İncəsənət Universitetinin Sənətşünaslıq fakültəsinə daxil olub. O, universitetin Tələbə Gənclər Təşkilatının üzvü olmaqla yanaşı, bir neçə televiziya kanalı ilə ictimai əsaslarla əməkdaşlıq edib. Universiteti bitirdikdən sonra 2014-cü ilin iyulunda SHXÇDX-nın Şirvan rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Silahlı Qüvvələrin Ağdam rayonunda yerləşən "N" saylı hərbi hissəsində həqiqi xidmətə başlayıb. Daha sonra Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində "Ehtiyat zabit hazırlığı kursu"nu keçərək "leytenant" rütbəsi alıb və xidmətinə zabit kimi davam edib. 2016-cı ilin Aprel döyüşlərinin iştirakçıları arasında Süleyman da olub. O, şəhid general-mayor Polad Həşimovun rəhbərliyi altında mövqelərimizin düşmən qüvvələrindən azad edilməsində mərdliklə döyüşüb.

Ordu sıralarından tərxis edildikdən sonra Şirvan şəhərindəki marketdə administrator vəzifəsində çalışıb. Eyni zamanda aktiv gənc olduğu üçün Şirvan Gənclər Evində könüllü şəkildə aktiv fəaliyyət göstərib.

Vətən müharibəsi başlayandan bir gün sonra - 28 sentyabrda çağırış vərəqəsi alan Süleyman sentyabrın 29-da Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissəyə aparılıb. Bir neçə gün orada qaldıqdan sonra oktyabrın 3-də Füzuli istiqamətindən döyüşlərə qoşulub. Cəbrayılın düşmən tapdağından azad olunmasında şücaəti ilə seçilib. Lakin onun döyüş yolu qısa olur, oktyabrın 8-də Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndi uğrunda gedən döyüşdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalır. O, düşmən bunkerinə yaxın ərazidə şəhid olduğu üçün nəşi 10 noyabr bəyanatından sonra götürülərək ailəsinə təhvil verilib. Şəhidimiz noyabrın 13-də Şirvan şəhər Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Süleyman 2019-cu ildə ailə qurub, onun yeganə qızı şəhadətindən sonra dünyaya gəlib. Qızına atasının istədiyi Nilufər adı qoyulub.

Döyüş əməliyyatları zamanı vəzifə borcunu şərəflə yerinə yetirərək adını şanlı vətən tariximizə yazan leytenant Bağırov Süleyman Loğman oğlu ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda" medalı və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

**Hazırladı: Ramil Baxşəliyev**

# Qeyri-kommersiya dini qurumlarının dövlət reyestr
(Dini qurumların dövlət reyestri)
**məlumatları**

**«Şəki rayonu Çayqaraqoyunlu kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 09 iyun 2010-cu il
Qeydiyyat nömrəsi: 100110A3 – 402

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Ağamalıyev Fərrux Möhlüd oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Dəyişikliklərin qeydiyyat tarixi: 03 aprel 2024-cü il

**«Zaqatala rayonu Dardoqqaz kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 16 dekabr 2009-cu il
Qeydiyyat nömrəsi: 100109A3 – 109

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Hacıyev Başir Murtuzəli oğlu, Əhmədov Əli Əhməd oğlu, Qarakişiyev Əmrullah Həsən oğlu, Məmmədov Abbas Əsədullah oğlu, Musayev Zakir Bədrəddin oğlu, İbrahimov İsmayıl Abdurahman oğlu, Məmmədov Talıb Rəcəb oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Əhmədov Cəmil Əli oğlu, Hacıyev Arif Məhəmməd oğlu, Hacıyev Kamran Kamil oğlu, Abdullayev İlqar Həsən oğlu, Musayev Hacımusa Mövlüd oğlu, Qarakişiyev Musa İsrafil oğlu, Mehdiyev Elsevər Abdurahman oğlu, Abdullayev İlkin Həsən oğlu, Babayev Mollavəli Həbib oğlu, Musayev Samir Bədrəddin oğlu, Musayev Nəsrəddin Məcid oğlu, Musayev Bəxtiyar Ramazan oğlu, Hacıyev Məmməd İbadulla oğlu, Hacıyev İbadulla Murtuzəli oğlu, Mansurov Şahin Məhəmməd oğlu, Həsənov Hudul Ömər oğlu, Xudaverdiyev Əhməd Ələsgər oğlu, Xalitov Rauf Yaqub oğlu, Xalitov Elmar Yaqub oğlu, Məmmədov Rəcəb Talıb oğlu, Məmmədov Ramazan Rəcəb oğlu, Qarakişiyev Nurullah Həsən oğlu, Məmmədov Ramazan Nurpaşa oğlu, Qasımov Teymur Məmməd oğlu, Məmmədov Əsədullah Məmməd oğlu, Mehdiyev Ruslan Mehdi oğlu, Musayev Mövlüd Hacımusa oğlu, Babayev Zaur Zaman oğlu, Qasımov Şəhmir Qasım oğlu, Ramazanov Muhma Məmmədvəli oğlu, Mirzəyev Vahid Salah oğlu, Bağırov Rafiq Vəlяddin oğlu, Abdullayev Asif Hüseyn oğlu, Mansurov Rafael Məmmədvəli oğlu, Məmmədov İlyas Əsədullah oğlu, Rəcəbov Rəcəb Məmməd oğlu, İbrahimov Fəxrəddin Abdurahman oğlu, Babayev Nəsir Qəhrəman oğlu, Babayev Əhməd Telman oğlu, Ömərov Tural Həsən oğlu, Məmmədov Süleyman Məmməd oğlu, Rəcəbov Şahid Məmməd oğlu, Cavadxanov Cəmaləddin Əliyeviç, Babayev Şaban Mollavəli oğlu, Həsənov Hədis Hudul oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Məmmədov İbrahim İsmayıl oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Musayev Zakir Bədrəddin oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 16 aprel 2024-cü il

**Ləğv olunmuş dini qurumlar**

"Yevlax şəhər "Cümə" məscidi" dini icması
Qeydiyyat tarixi: 12.03.2009-cu il
Qeydiyyat nömrəsi: 1309Ye1-534

"Yevlax şəhər "Cümə" məscidi" dini icması təsisçilərinin 14.03.2024-cü il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Ləğv olunması: 04 aprel 2024-cü ildə qeydə alınıb.

## BRİTANİYA ALİMLƏRİ XƏRÇƏNGİN MÜALİCƏSİNDƏ MÜHÜM ADDIM ATIBLAR

Surrey Universitetinin (Böyük Britaniya) alimləri xərçəng hüceyrələrinin içərisinə "baxmağa" imkan verən unikal texnika hazırlayıblar.

Britaniya Xərçəng Cəmiyyəti xəbər verir ki, yeni metodun mahiyyəti mikroskopik borulardan istifadə edərək fərdi xərçəng hüceyrələrinin çıxarılması və onların lipid tərkibinin sonrakı təhlilindən ibarətdir. Bu, flüorasan boyalardan və kütlə spektrometriyasından istifadə etməklə mümkün olub.

Tədqiqat nəticəsində məlum olub ki, hər bir xərçəng hüceyrəsinin özünəməxsus "lipid profili" var ki, bu da onların terapiyaya qarşı müxtəlif müqavimətini izah edir. Alimlərin fikrincə, onların əldə edilməsi xərçəngin daha effektiv müalicəsinin inkişafı üçün yeni imkanlar açır.

Gələcəkdə tədqiqatçılar fərdi xərçəng hüceyrələrinin bir-biri ilə qarşılıqlı əlaqəsini öyrənməyi planlaşdırırlar ki, bu da fərdi terapiya yaratmaq üçün əsas ola bilər.

## Bakı və Abşeron üzrə namaz vaxtları (May - 2024)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 04:08 | 05:39 | 12:38 | 17:33 | 19:52 | 21:01 |
| 2 | 04:07 | 05:38 | 12:38 | 17:34 | 19:53 | 21:03 |
| 3 | 04:05 | 05:37 | 12:37 | 17:34 | 19:54 | 21:04 |
| 4 | 04:03 | 05:36 | 12:37 | 17:35 | 19:55 | 21:06 |
| 5 | 04:02 | 05:34 | 12:37 | 17:35 | 19:56 | 21:07 |
| 6 | 04:00 | 05:33 | 12:37 | 17:36 | 19:57 | 21:08 |
| 7 | 03:59 | 05:32 | 12:37 | 17:37 | 19:58 | 21:10 |
| 8 | 03:57 | 05:31 | 12:37 | 17:37 | 19:59 | 21:11 |
| 9 | 03:56 | 05:30 | 12:37 | 17:38 | 20:00 | 21:12 |
| 10 | 03:54 | 05:29 | 12:37 | 17:38 | 20:01 | 21:14 |
| 11 | 03:53 | 05:28 | 12:37 | 17:39 | 20:02 | 21:15 |
| 12 | 03:51 | 05:27 | 12:37 | 17:39 | 20:03 | 21:17 |
| 13 | 03:50 | 05:26 | 12:37 | 17:40 | 20:04 | 21:18 |
| 14 | 03:48 | 05:25 | 12:37 | 17:40 | 20:05 | 21:19 |
| 15 | 03:47 | 05:24 | 12:37 | 17:41 | 20:06 | 21:21 |
| 16 | 03:46 | 05:23 | 12:37 | 17:42 | 20:07 | 21:22 |
| 17 | 03:44 | 05:22 | 12:37 | 17:42 | 20:08 | 21:23 |
| 18 | 03:43 | 05:21 | 12:37 | 17:43 | 20:09 | 21:25 |
| 19 | 03:42 | 05:20 | 12:37 | 17:43 | 20:10 | 21:26 |
| 20 | 03:40 | 05:20 | 12:37 | 17:44 | 20:11 | 21:27 |
| 21 | 03:39 | 05:19 | 12:37 | 17:44 | 20:12 | 21:28 |
| 22 | 03:38 | 05:18 | 12:37 | 17:45 | 20:13 | 21:30 |
| 23 | 03:37 | 05:17 | 12:37 | 17:45 | 20:14 | 21:31 |
| 24 | 03:36 | 05:17 | 12:37 | 17:46 | 20:15 | 21:32 |
| 25 | 03:35 | 05:16 | 12:38 | 17:46 | 20:16 | 21:33 |
| 26 | 03:34 | 05:15 | 12:38 | 17:47 | 20:17 | 21:34 |
| 27 | 03:33 | 05:15 | 12:38 | 17:47 | 20:17 | 21:36 |
| 28 | 03:32 | 05:14 | 12:38 | 17:48 | 20:18 | 21:37 |
| 29 | 03:31 | 05:14 | 12:38 | 17:48 | 20:19 | 21:38 |
| 30 | 03:30 | 05:13 | 12:38 | 17:49 | 20:20 | 21:39 |
| 31 | 03:29 | 05:13 | 12:38 | 17:49 | 20:21 | 21:40 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## İTALİYANIN BÖYÜK ŞƏHƏRLƏRİNDƏ KARDİNALLAR OLMAYACAQ

"Il Messaggero" qəzeti xəbər verir ki, Genuya, Türin, Palermo, Neapol, Milan və Venesiyada olduğu kimi, artıq İtaliya Florensiyasında da yeparxiyanın başında bir kardinal olmayacaq.

Papa Fransisk Toskana paytaxtına yeni yepiskop təklif edib, lakin onu kardinal təyin etməyib. Baxmayaraq ki, əsrlər boyu Florensiya kafedrası mühüm kardinal taxtı olmuşdur.

Aprelin 18-də kardinal Cüzeppe Betori Florensiya arxiyepiskopu vəzifəsindən istefa verib. Bunun ardınca Afrikada uzun müddət missionerlik təcrübəsi olan prixod keşişi Don Cerardo Gambelli Florensiya kafedrasına yeni iyerarx təyin olunub.

Hazırda kardinal statusuna malik yepiskopu (Matteo Zuppi) olan yeganə İtaliya əyalət paytaxtı Bolonyadır.

Yeni arxiyepiskopların seçilməsi üçün meyarlar aşağı-yuxarı eynidir: onlar sosial iş, missionerlik fəaliyyəti və pastoral qayğı sahələrində az, ancaq mühüm təcrübəyə malik "Kilsə adamlarıdır". Bunlar adətən rahiblər və ya sadəcə yeparxiya prixod keşişləridir.

Florensiyanın başına gələn eyni aqibət - kardinalsız qalmaq - Papanın özünün yeparxiyasının yerləşdiyi Romanın da başına gələ bilər. Belə ki, kardinal Ancelo De Donatis artıq Roma papasının vikarisi (əslində Roma yeparxiyasının inzibatçısı) vəzifəsindən azad edilib. O, Roma Kuriyasında yeni vəzifəyə təyin olunub və Vatikan hazırcavablarının zarafat üçün Papanın "fil qəbiristanı" adlandırdıqları Apostol Penitensiariyasına rəhbərlik edir.

Papa Fransiskin müəyyən etdiyi yeni qaydaya əsasən, bundan sonra yeparxiya işlərini həmişə olduğu kimi kardinal-vikar deyil, vikar-yepiskop həyata keçirəcək. Apostol konstitusiyası "Ecclesiarum Communion"-a əsasən, vikar hər cəhətdən Papanın vikarisi (yepiskop müavini) hesab edilməlidir. Beləliklə, bəlkə, gələcəkdə Romada həqiqətən də yeparxiyanı idarə edən kardinallar olmayacaq.

**Yadigar söz**

***Ulu Öndər Heydər Əliyev***

*Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir.*


Baş redaktor **Səyyad ARAN**

**Redaksiya şurası:**
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894